Xalqın qəzeti!

# Xalq qəzeti

№ 243 (30359) 5 noyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqazeti.az

## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Cənubi Qafqazda hələ sülh tam bərqərar olmayıb. Bunun artıq vaxtı çatıb. Əgər Azərbaycan və Ermənistan arasında sülh sazişi bağlansa, Cənubi Qafqazda yeni bir siyasi vəziyyət yaranacaq. Bölgə ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər.**

# Dünya Cənubi Qafqazdan sülh gözləyir

## Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berboku qəbul edib.**

Görüşdə Azərbaycan–Almaniya ikitərəfli əlaqələri, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və bütövlükdə Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Almaniyanın xarici işlər naziri ölkəsinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və bu xüsusda Avropa İttifaqının dəstəyi ilə aparılan Brüssel platformasını dəstəklədiyini diqqətə çatdırdı. O, həmçinin Azərbaycanın üzləşdiyi humanitar mina probleminin aradan qaldırılmasına Almaniyanın kömək göstərməyə hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı bu ilin martında Almaniyaya səfərini və səfər çərçivəsində Kansler Olaf Şolts, Prezident Frank-Valter Ştaynmayer ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəklədiyini bildirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bu üç ölkə arasında əməkdaşlığın indiyədək mümkün olmadığını qeyd etdi.

Dövlətimizin başçısı Ermənistanın son üç ildə Azərbaycanın Qarabağ bölgəsinə silah-sursatın və hərbi heyətin daşınmasını həyata keçirdiyini vurğuladı. Prezident İlham Əliyev sentyabrın 2-də Nikol Paşinyanın Ermənistan tərəfindən Azərbaycan ərazilərində yaradılmış və dəstəklənən qondarma rejimi təbrik etməsini və artıq özünü ləğv etmiş qondarma rejimin sentyabrın 9-da dırnaqarası "seçkilər" keçirməsini regionda vəziyyətin gərginləşməsinə xidmət edən təxribatçı addımlar olduğunu bildirdi. Prezident İlham Əliyev lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyini bərpa etdiyini və ölkəmizin Ermənistan ilə münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını, regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı.

Söhbət əsnasında Azərbaycan ilə Almaniya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

**Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya olunmaq, ölkəmizin vətəndaşlığını qəbul etmək istəməyib sentyabrın sonlarında Qarabağ iqtisadi rayonundan Ermənistana köçən ermənilər bu ölkədə müxtəlif siyasi qüvvələrin əlində alətə çevrilməkdədirlər. Son günlər istər Ermənistan hökumətinin atdığı addımlar, istərsə də müxtəlif siyasi qüvvələrin təmsilçiləri tərəfindən Qarabağ erməniləri ilə bağlı verilən açıqlamalar belə deməyə əsas verir. Eyni zamanda, Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən Qarabağ erməniləri hazırda Ermənistanda qeyri-müəyyən statusda, acınacaqlı və miskin durumdadırlar.**

# Qarabağ erməniləri alətə çevriliblər



Rəsmi İrəvan və Qarabağdakı keçmiş separatçı xunta rejimi hər zaman bölgədə 120 min erməninin yaşadığını iddia edirdi. "120 min" rəqəmi onların dillərindən düşmürdü. Amma ermənilərin köçündən sonra Ermənistanın özünün açıqladığı rəsmi rəqəm bundan xeyli az – 100 min 417 nəfər olub. Bu, hələ Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryanın açıqladığı rəsmi rəqəmdir. İrəvanın "pripiska"nın sərhəd tanımadığını nəzərə alsaq, köçən ermənilərin sayının dəfələrlə az olduğunu qeyd edə bilərik. Yada salaq ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan sonra Rusiya sülhməramlıları Qarabağa 52,7 min sakinin qaytarıldığını rəsmən elan etmişdilər. Əslində isə bölgədə yaşayanların sayı 20-25 min arasında idi.

*(ardı 4-cü səhifədə)*

## Bu sayımızda

Ermənistan faktoru və bu kontekstdə Avropa İttifaqı – Rusiya rəqabəti
Səhifə ⇨ 3

Arşakyanın yalanı və Moskvanın cavabı
Səhifə ⇨ 3

Ulu öndərin xüsusi tapşırığı
Səhifə ⇨ 5

Hərtərəfli inkişaf və tərəqqi iqtisadi yüksəlişdən qaynaqlanır
Səhifə ⇨ 7

"Şahdəniz" layihəsi ölkəmizə töhfəsini artırır
Səhifə ⇨ 7

Yeraltı səltənətin yerüstü bayramı
Səhifə ⇨ 8

Ağdam yenə Qarabağın baş qapısıdır
Səhifə ⇨ 9

"Danışır və göstərir Bakı"
Səhifə ⇨ 10

Kolonnanın Afrikaya anti-Rusiya tövsiyəsi
Səhifə ⇨ 11

# Berbok bölgəyə Brüsselin elçisi kimi gəlib, yoxsa...

**Avropa İttifaqında Fransadan sonra söz sahibi olan Almaniyanın xarici işlər naziri Annalena Berbokun cari ilin martında Gürcüstana səfəri nəzərə alınmasa, bu, 42 yaşlı diplomatın bölgəyə ilk gəlişidir. Daha doğrusu, Almaniyanın xanım baş diplomatı İrəvanı və Bakını birinci dəfə ziyarət edir.**



Noyabrın 3-də İrəvanda erməni həmkarı Ararat Mirzoyanla görüşdən sonra düzənlənən birgə mətbuat konfransında Annalena Berbok Ermənistanla Azərbaycan arasında sülhün bərpa olunması, münaqişəyə birdəfəlik son qoyacaq sülh sazişinin imzalanması zərurətindən danışıb. Onun sözlərinə görə, inkişafa təkan verən istehsal şəbəkəsi demokratiya və təhlükəsizliyin olduğu yerdə yaradılır: "Təminatlı təhlükəsizlik üçün Ermənistan və Azərbaycan arasında sülhə ciddi ehtiyac duyulur. Bundan sonra investisiyaların cəlb olunmasına böyük imkanlar yaranacaq. Bizim məqsədimiz bölgədə, misal üçün, Qara Dəniz Elektrokabeli kimi iqtisadi proqramların start götürməsindən ötrü sülh prosesinə öz töhfəmizi verməkdir".

Sülh müqaviləsi bağlandıqdan sonra Ermənistanın Almaniyanın böyük investorları üçün cəlbedici olacağını bildirən xarici işlər naziri bunun üçün danışıqlar prosesinin davam etməsini vacib sayıb. Öz növbəsində Ermənistan XİN rəhbəri İrəvanın bölgədə sülhü bərqərar etmək üçün siyasi iradəyə malik olduğunu, Azərbaycan və Türkiyə ilə münasibətlərin nizamlanması prosesinin getdiyini söyləyib. Mirzoyan etiraf edib ki, danışıqlarda bəzən sıçrayışa yaxın olduğumuz görünür, amma yeni maneələr ortaya çıxır: "Onu da deyirəm ki, biz həm siyasi, həm də təhlükəsizlik baxımından zəifik. Planlaşdırdığımız təhlükəsizlik mexanizmlərinin effektivliyini görmədik".

*(ardı 4-cü səhifədə)*

# "Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımışdısa, niyə antiterror tədbirləri oldu?"

## *Rusiyalı politoloq Sergey Markedonovun bu sualı siyasi ittihamdır*

**Yaşadığımız Cənubi Qafqaz coğrafiyası ilə bağlı mühüm məsələlərdən biri də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Ölkəmizin Prezidenti İlham Əliyev də çıxışlarında məsələyə toxunub və 2023-cü ilin sonunadək belə bir müqavilənin ərsəyə gələcəyinə inandığını vurğulayıb.**

Ümumən, hazırda mövcud olan bütün ziddiyyətlər və Ermənistanın, demək olar, bütün beynəlxalq platformalarda anti-Azərbaycan siyasət yürütməsinə baxmayaraq, Bakı-İrəvan anlaşmasının meydana çıxacağını gözləyənlər qalmaqdadır.



*(ardı 3-cü səhifədə)*



# Yaxın Şərqdə silahlar diplomatik səylərdən güclüdür

**HƏMAS–İsrail qarşıdurması davam edir. Dünən İsrailin Müdafiə Qüvvələri Qəzza zolağının şimalı ilə bərabər, cənub hissəsində də antiterror əməliyyatı həyata keçirib. Rəsmi Təl-Əviv terrorçulara qarşı mübarizədə qərarlı olduğunu bəyan edib.**

Qəzzanın havadan bombalanması davam etdikcə ev-eşiksiz qalan ailələrin sayı artır. BMT rəsmisi hazırda Qəzzada təhlükəsiz yerin olmadığını bildirib. Onun sözlərinə görə, indi bu qurumun bayrağı altında sabitliyi təmin etmək qeyri-mümkündür. Bu barədə BBC məlumat yayıb.

BMT rəsmisi BBC müxbirinə açıqlamasında etiraf edib ki, təmsil olunduğu qurum, təəssüf ki, ondan sığınacaq gözləyən 600 mindən çox Qəzza sakininin təhlükəsizliyinə zəmanət vermək gücündə və iqtidarında deyil.

*(ardı 11-ci səhifədə)*

# C.Bayramov: Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 70 faizi ölkəmizin payına düşür

**Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, ərazi adlarına beynəlxalq hüquq çərçivəsində hörmət edilməlidir.**



Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov noyabrın 4-də Almaniyanın xarici işlər naziri Annalena Berbokla birgə keçirilən mətbuat konfransında deyib.

O, bildirib ki, Azərbaycan 30 il işğaldan əziyyət çəkib, insanlar evlərindən ən ağır şəraitdə didərgin salınıblar. Vaxtilə buna heç kəsin reaksiyası olmadığı halda, indi sakit, dinc şəraitdə, həm də özlərinin istəyi ilə Qarabağı tərk edən ermənilərə daha çox can yandırılır.

"Azərbaycan sülh sazişinin bağlanması istiqamətində bütün formatda danışıqlara hazırdır və bu istiqamətdə səylərini davam etdirir", - deyə nazir vurğulayıb.

Uzun illər ərzində Azərbaycan ilə Almaniya arasında ticarət, enerji, kənd təsərrüfatı, qarşılıqlı sərmayələrin qoyulması, infrastruktur layihələrində qarşılıqlı iştirak sahələrində əlaqələr uğurla inkişaf edir.

Nazir deyib ki, Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir və onlar müxtəlif sahələrdə layihələrin həyata keçirilməsinə cəlb olunublar.

"Almaniyanın Cənubi Qafqaz ölkələri ilə olan ticarətinin 70 faizi Azərbaycanın payına düşür. 2022-ci ildə ölkələrimiz arasında qarşılıqlı ticarət dövriyyəsi 1,3 milyard ABŞ dolları olub. 2023-cü ilin ilk doqquz ayının nəticələrini olduqca müsbət qiymətləndirmək olar. İlk 9 ay ərzində ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 60 faiz artıb", - deyə C.Bayramov əlavə edib.

Azərbaycan ilə Almaniya arasında bir çox istiqamətlərdə, o cümlədən enerji, nəqliyyat, tranzit bağlantıları, alternativ enerji və bir sıra digər sahələrdə əməkdaşlığın çox böyük potensialı mövcuddur.

Almaniyalı həmkarı ilə bölgədə olan son vəziyyət barədə ətraflı fikir mübadiləsi apardıqlarını vurğulayan Ceyhun Bayramov qeyd edib: "Həmkarıma Azərbaycan torpaqlarının 30 illik işğalı, işğalın ağır nəticələri, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın azad olunması, eyni zamanda, postmünaqişə dövründə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması, həmçinin regionun gələcək inkişafı baxımından Azərbaycanın baxışını bir daha çatdırdım". Nazir deyib ki, eyni zamanda, görüşdə son üç il ərzində ölkəmiz tərəfindən Ermənistan-Azərbaycan postmünaqişə normallaşması kontekstində həm sülh müqaviləsinin irəli aparılması, eyni zamanda, kommunikasiyaların açılması, həmçinin iki ölkə arasında sərhədlərin delimitasiyası istiqamətində atılan addımlar barədə müzakirələr aparılıb.

Azərbaycan hesab edir ki, Ermənistanla münasibətlərin normallaşdırılmasının, sülhün alternativi yoxdur. Təəssüf ki, Azərbaycanın bu barədə son təşəbbüslərinə Ermənistan tərəfindən hələ də cavab verilməyib. Ermənistan tərəfinin cavabı gözlənilir.

Azərbaycan son üç ildə məsələnin dialoq yolu ilə həllini tapması üçün mümkün addımları atdığını qeyd edən Ceyhun Bayramov deyib ki, törədilən təxribatların qarşısını almaq mümkün olmadıqda Azərbaycan bütün beynəlxalq hüququ, humanitar hüququ gözləyərək qısamüddətli antiterror tədbirləri həyata keçirib. Bunu BMT-nin bölgəyə səfər etmiş missiyası da təsdiqləyib. Həmin vaxt Ermənistanın baş nazirinin də bunu təsdiqlədiyini xatırladan nazir Paşinyanın sonradan bundan boyun qaçırdığını və ziddiyyətli açıqlamalar verdiyini diqqətə çatdırıb.

**XQ**

# A.Berbok: Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləmişik

**Mən hər zaman ifadə etmişəm ki, Qarabağ Azərbaycanın ərazisidir. Almaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.**



Bu sözləri Almaniyanın xarici işlər naziri Annalena Berbok Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirilən mətbuat konfransında söyləyib.

Nazir deyib: "Almaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Azərbaycanlılar öz torpaqlarına qayıtmalıdırlar".

Almaniya Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində vasitəçi olmağa hazırdır.

Demarkasiyanın çətin və uzun proses olduğunu diqqətə çatdıran nazir normallaşma prosesində Avropa formatının əhəmiyyətini qeyd edib. "Məqsədimiz etimad quruculuğu ilə məşğul olmaqdır. Mina təhlükəsi ilə mübarizə üçün layihəmizi bugünkü görüşdə təqdim etdik. Əməkdaşlığımızı davam etdirəcəyik", - deyə A.Berbok bildirib.

Hazırda Cənubi Qafqaz Avropa üçün maraqlı bölgədir. Cənubi Qafqaz, xüsusilə Azərbaycan Avropa üçün strateji tərəfdaşdır. Regionda hamının sülhə ehtiyacı var. Ardıcıl və davamlı sülhün təmin olunması inkişaf üçün çox vacibdir. Almaniya Azərbaycana mina təhlükəsi ilə mübarizədə kömək etməyə hazırdır.

Xanım Berbok qeyd edib ki, Azərbaycan müharibədən sonra bərpa və qayıdış prosesini həyata keçirir.

Azərbaycanın və Ermənistanın qonşu ölkələr kimi dinc və yanaşı yaşamağının vacibliyini qeyd edən Almaniya XİN-in rəhbəri rəsmi Bakının sülh sazişi istiqamətində səylərini yüksək qiymətləndirib.

**XQ**

## Berbokun Bakı yalanı

**Almaniyanın xarici işlər naziri Annalena Berbok Azərbaycan Xarici İşlər Nazirliyində mətbuat konfransında yalan açıqlama ilə çıxış edib.**

Belə ki, xanım nazir Bakıda Ermənistandan köçmüş şəxslərlə görüş keçirdiyini də bildirib. Etibarlı mənbələrdən əldə olunmuş məlumata əsasən isə, əslində, o, "Mənzərə" restoranında vətəndaş cəmiyyətinin bəzi nümayəndələri ilə görüşünü nəzərdə tutmuş.

Əslində nazir xanıma qaçqın və məcburi köçkünlərlə görüş üçün təklif verilsə də, bundan açıq-aşkar imtina edib. Belə olan halda o, görəsən, hansı qaçqınlarla görüşübmüş?!

# Dövlət büdcəsi zərfinə daxil olan sənədlər müzakirə edilib



**Dünən Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında dövlət büdcəsi zərfinə daxil olan 6 qanun layihəsi müzakirə olunub.**

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanıb. Fondun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4 faiz çoxdur.

"İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi ilə bağlı bildirilib ki, 2024-cü ildə Fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur. "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsinə uyğun olaraq, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilir.

"Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən, sığortaolunanın seçim hüququ il ərzində yarandıqda hüququn yarandığı gündən 15 gün ərzində öz seçimi barədə yazılı məlumatı sığortaedənə təqdim edir və məcburi dövlət sosial sığorta haqqının minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından hesablanması seçim hüququnun yarandığı gündən etibarən tətbiq edilir.

"İşsizlikdən sığorta haqqında" Qanunda dəyişikliklə bağlı təklif olunan düzəlişlər işsizlikdən sığorta haqqı ala biləcək vətəndaşların kateqoriyasının genişləndirilməsinə, sığorta stajının azaldılmasına və uşaqlara görə əlavə ödənişlərə qoyulan məhdudiyyətin aradan qaldırılmasına xidmət edir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov, parlamentin komitə sədrlərinin müavinləri Məlahət İbrahimqızı, Əli Məsimli, komitə üzvləri Vüqar Bayramov, Rüfət Quliyev, Arzu Nağıyev, İlham Məmmədov, Soltan Məmmədov, Aydın Hüseynov, Jalə Əliyeva, Ziyad Səmədzadə, Sevinc Hüseynova gələn ilin büdcəsi və büdcə zərfinə daxil olan sənədlər barədə rəy və təkliflərini söyləyiblər.

Müzakirələrin sonunda gündəliyə daxil edilən qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**XQ**

# Milli Məclisdə dinləmə keçirilib



**Noyabrın 4-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi "Mina təhlükəsi ilə mübarizə – partlayıcı sursatların ekosistemə təsiri" mövzusunda ictimai dinləmə keçirib.**

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə qayıdışla bağlı ən böyük çətinlik minalanmış ərazilərin təmizlənməsidir.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Mina təhlükəsi ilə mübarizədə ekoloji tarazlığın qorunması", kənd təsərrüfatı naziri Məcnun Məmmədov "İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinin kənd təsərrüfatı fəaliyyətinə yaratdığı çətinliklər" mövzularında çıxış ediblər.

Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov "İşğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlarla çirkləndirilməsinin ətraf mühitə təsiri" mövzusunda çıxış edərək mina partlayışları zamanı yaranan plastik tullantıların ekoloji fəsadlara səbəb olduğunu, kənd təsərrüfatı üçün münbit torpaqların strukturuna mənfi təsir göstərdiyini vurğulayıb.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva "Dayanıqlı inkişaf məqsədləri üçün minaların ekosistemə təsirinin aradan qaldırılması" mövzusunda nitqində mina təhlükəsi ilə mübarizə fəaliyyətinin uğuru üçün qlobal təcrübəyə əsaslanaraq yerli, milli və beynəlxalq tərəflər arasında güclü tərəfdaşlığın vacib amillərdən olduğunu qeyd edib.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Həbib Mikayıllı "Mina problemi və beynəlxalq səylər" mövzusunda çıxış edib. O, işğaldan azad olunmuş ərazilərimizdə ilkin hesablamalara görə, 1,5 milyon minanın yerləşdirildiyini, Ermənistanın bu günədək mina xəritələrini verməkdən boyun qaçırdığını, bunun beynəlxalq hüququn yaşamaq və hərəkət azadlığı kimi fundamental prinsiplərinə zidd olduğunu diqqətə çatdırıb.

AMEA-nın prezidenti İsa Həbibbəyli, Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko ANAMA-nın fəaliyyətini yüksək qiymətləndiriblər.

***Əliqismət BƏDƏLOV***
**XQ**

## Müdafiə Nazirliyində



### Naxçıvan şəhərində hərbi yürüş

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar Naxçıvan şəhərində hərbi yürüş keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə keçirilən yürüş Naxçıvan şəhərindəki Heydər Əliyev prospektindən başlayıb və Zəfər parkınadək davam edib.

Hərbi qulluqçularımız və gələcəyin zabitləri yürüşləri ilə Ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramlarını və Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etmək şərəfinin yaratdığı qürur və iftixar hisslərini nümayiş etdiriblər.

Yürüş iştirakçıları hərbi orkestrin müşayiəti ilə hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar və şüarlar səsləndiriblər.

İzləyənlər tərəfindən hərbi yürüş böyük maraq və alqışlarla qarşılanıb. Sonda Əlahiddə Ümumqoşun Ordunun Nümunəvi Hərbi Orkestrinin konserti olub.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Orduda cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar keçirilən silsilə tədbirlər davam edir.

### "Sualtı hücum xüsusi təyinatlı kursu"nun buraxılış mərasimi keçirilib



Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində "Sualtı hücum xüsusi təyinatlı kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzülərək hörmət və ehtiram nümayiş etdirilib.

Buraxılış mərasimində xalqımızın Ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov çıxış edərək kursantları təbrik edib və onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Qardaş ölkədən olan peşəkar təlimatçıların da cəlb edildiyi kursların yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə türkiyəli zabitlərə və bütün heyətə təşəkkürünü bildirib.

Kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulduqdan sonra kursantlara sertifikatlar təqdim olunub.

Kursda fərqlənən bir qrup hərbi qulluqçu və təlimatçı fəxri fərman, döş nişanları və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Buraxılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra dəniz xüsusi təyinatlılarının taktiki-xüsusi məşğələsi, eləcə də sualtı hücum və sualtı müdafiə bölmələrinin dalğıclarının nümunəvi çıxışları nümayiş etdirilib.

**XQ**

# Ermənistan faktoru və bu kontekstdə Avropa İttifaqı – Rusiya rəqabəti

## *Regional kommunikasiyalar və Qərbin anti-Rusiya xəttində "İrəvan kamikadzeliyi"*

**Avropa İttifaqının Ermənistanla münasibətlərdə fəallığı İrəvanla Moskva arasındakı münasibətlərə necə təsir göstərir? Mövcud reallıqlarda Ermənistan və Azərbaycan arasında kommunikasiyaların açılması məsələsində Rusiya ilə Aİ arasında əməkdaşlıq mümkündürmü? Rusiya Xarici işlər nazirinin müavini Aleksandr Quşko Səmərqənddə keçirilən XVI Verona Avrasiya İqtisadi Forumu çərçivəsində Ermənistanın VERELQ Analitik İnformasiya Mərkəzinin bu məsələlərə dair suallarını cavablandırıb.**



Nazir müavini bildirib ki, geosiyasi nöqteyi-nəzərdən baxsaq, görərik ki, Qərbin Rusiyanı cilovlamaq xətti təkcə bu xəttin həyata keçirildiyi ənənəvi formalarda, Moskvaya qarşı açılmış hibrid müharibədə deyil, eyni zamanda, iqtisadi sahədə, informasiya sferasında, hərbi təzyiq cəhdlərində özünü göstərir. Bu xətt, habelə, müxtəlif geosiyasi səhnələrdə də həyata keçirilir. "Təəssüf ki, bu gün həm ABŞ-ın, həm də ümumilikdə, Avropanın Cənubi Qafqazda və ya bizim üçün daha başadüşülən dildə desək, Zaqafqaziyada etdikləri də bu geosiyasi strategiyanın bir hissəsidir", – deyən A.Qruşko əlavə edib ki, Qərbin davranışı Rusiyanın sərhədləri ətrafında gərginlik qövsü yaradır. Aİ-nin həyata keçirdiyi bir çox hərəkətlərdə nə qədər xoş niyyətlər gizlənsə də, əslində, siyasətin mahiyyəti budur.

A.Qruşkonun bildirdiklərini bir neçə cəhətdən qiymətləndirmək mümkündür. Birincisi, Qərb Aİ-nin timsalında Cənubi Qafqazı Rusiya təsirindən çıxarmaq niyyətindədir. Bunun üçün irəli sürülmüş fikir və təkliflər, cəlbediciliyindən asılı olmayaraq, Moskva tərəfindən səmimi qarşılanmayacaqdır. Kreml bu qənaətdədir ki, Qərb, necə deyərlər, "pambıqla baş kəsmək" məntiqini işə salıb.

Rusiya həm də ona görə ehtiyatlıdır ki, əvvəlki dövrlərdə də Qərbin özünə münasibətdəki qeyri-səmimi davranışını görüb. Bu mənada ölkə, şübhəsiz ki, haqlı tərəfdir. Çünki Qərb 1998-ci ildən bəri Rusiyaya doğru yaxınlaşmamaqla bağlı üzərinə götürdüyü bütün öhdəliklərə xilaf çıxıb. Məsələ barədə Prezident Vladimir Putinin kifayət qədər açıq tərzdə ifadə olunmuş açıqlamaları var və Qərbdən bu açıqlamalara reaksiyanın olmaması Rusiyanın dövlət başçısının söylədiklərinin həqiqət olduğuna şübhə yeri qoymur. O ki qaldı, Qafqaza, cənab Qruşkonun sözlərindən gəlinən qənaət onu deməyə əsas verir ki, burada da Qərbin dəst-xətti əvvəlki illərdə olanların təkrarıdır. İndi isə mövcud ssenaridə rol Ermənistana verilib. Daha doğrusu, Ermənistan, belə demək mümkünsə, Qafqazın Ukraynası olmağa razılaşıb.

Rusiyanın XİN rəhbərinin müavini ölkəsinin Cənubi Qafqazdakı durumun yoluna qoyulması ilə bağlı öz prioritetlərinin olduğunu açıqlayıb. Bildirib ki, bu müstəvidəki bütün məsələlər Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları üçtərəfli bəyanatların məntiqi ilə həllini tapmalıdır. Vəziyyəti sabitləşdirmək və problemləri beynəlxalq hüquq normalarına uyğun olaraq sülh yolu ilə həll etmək üçün bütün elementlər mövcuddur. Bu gün biz Verona Forumundayıq və Rusiya Federasiyası Baş nazirinin müavini artıq qeyd etdi ki, əlbəttə, qərarın bir hissəsi sərhədlərin, yeni nəqliyyat dəhlizlərinin açılması olmalıdır ki, bu, üçtərəfli bəyanatda qeyd olunub. Vəziyyəti sabitləşdirməyin əsas elementlərindən biri budur. Çünki Cənubi Qafqazın Şimal-Cənub və Qərb-Şərq nəqliyyat marşrutlarının keçəcəyi regionlardan birinə çevrilməsini təmin etmək lazımdır. Nəticədə regionun önəmi artacaq və bu, iqtisadi artıma gətirib çıxaracaq. İqtisadi artım isə təbii ki, siyasi problemlərin həllinə də töhfə verəcək.

Ancaq məsələ burasındadır ki, Ermənistan hazırda üçtərəfli bəyanat məntiqini tam şəkildə inkar etməklə məşğuldur. Hətta, erməni mediası baş nazir Nikol Paşinyanın həmin sənədin 9-cu bəndinin ləğvinə dair fikirlər bildirdiyini də tirajlayır. Bu isə o deməkdir ki, İrəvan Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yola, faktiki olaraq, regiondakı ən mühüm nəqliyyat habına nəzarətin Rusiyanın Federal Təhlükəsizlik Xidməti tərəfindən gerçəkləşdirilməsinə dair öhdəliyindən boyun qaçırmaqdadır. Əslində, Nikolun son aylar dedikləri də deyimin təsdiqidir. Aydın görünür ki, erməni baş nazir Rusiya nəzarətini ölkəsinin suverenliyinin və ərazi bütövlüyünün pozulması kontekstində qiymətləndirməyə köklənib. O ki qaldı, nazir müavini Qruşkonun regiondan Şimal-Cənub, Şərq-Qərb marşrutlarının keçməsi ilə bağlı söylədiklərinə əlbəttə, istər Rusiya, istər Azərbaycan, istər Türkiyə, istərsə də Ermənistan, elə İran da layihənin cəlbediciliyinin fərqindədir. Başlıca məsələ İrəvana təhlükəsizlik müstəvisində güvənməməkdir.

Əslində, regionun heç bir ölkəsi Ermənistana güvənmir. Ona görə ki, ölkə müstəqil siyasət yürütmür, Qərbin diktəsi ilə oturub-durur və lokal maraqlar naminə hər an mühüm geosiyasi nəqliyyat habını iflic duruma sala bilər. Məhz buna görə Azərbaycan dövləti ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən yolun İran ərazisindən keçməsini təklif edir. Yəni, bir halda ki, Ermənistan Rusiya nəzarətini suverenliyinə və ərazi bütövlüyünə təhdid kimi qiymətləndirir, üçtərəfli bəyanatın məntiqindən imtina edir, reallığa əsas saymayıb, populizmə güc verir, o zaman təcriddə qalacaq.

***

Erməni jurnalistin "Həm Brüssel, həm də Moskva Meğridən keçən dəmir yolundan danışırlar. Kommunikasiyaların blokdan çıxarılması məsələsində Rusiya ilə Avropa İttifaqı arasında əməkdaşlıq mümkündürmü? Yoxsa, indiki reallıqlarda, bu, mümkün deyil?" sualına cavabında A.Qruşkonun söylədikləri, əslində, onun Qərbə güvənsizlik baxımından əvvəl dilə gətirdiklərinin davamı kimi qiymətləndirilə bilər. Əlbəttə, söhbət bir qədər fərqli formada qiymətləndirmədən gedir. Məsələn, cənab Qruşko bildirir ki, indiki reallıqlarda söhbət bir regiondan gedir. "Lakin deyək ki, Şimal-Qərbə baxsaq Avropa İttifaqı Rusiya ilə dəmir yolu əlaqəsini dayandırıb. Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin əsas halqaları olan Baltikyanı ölkələr indi tikanlı məftillərlə əhatə olunub, tank əleyhinə xəndəklər qazır və nəqliyyat vasitələrinin keçid məntəqələrini azaldır. Latviyada bir neçə gündən sonra Rusiyada qeydiyyatda olan avtomobillərin müsadirəsini nəzərdə tutan qanun tətbiq ediləcək. Bu şərtlər daxilində Avropa İttifaqı ilə hansı nəqliyyat əməkdaşlığından danışmaq olar?", - deyən Rusiya XİN rəhbərinin müavininin bildirdiklərini Cənubi Qafqaz müstəvisinə transformasiya etsək, belə nəticəyə gələ bilərik ki, Ermənistan hazırda özünün inadkarlığı ilə Rusiyanın transmilli marşrutlara yolunu kəsən tərəf kimi çıxış etməkdədir.

Maraqlı mənzərə formalaşır. Qruşkonun fikirləri üzərində dayansaq, bu qənaətə gəlmək mümkündür ki, Avropa istiqamətində Qərbin direktivləri ilə Rusiyanın yolunu kəsən Baltikyanı ölkələrdirsə, Cənubi Qafqaz müstəvisində eyni missiyanı reallaşdıran Ermənistandır. Başqa cür düşünmək mümkün də deyil. Deməli, bundan sonra da İrəvan israrlı davranacaq ki, Rusiya mühüm nəqliyyat qovşağından uzaq dursun.

Amma bir daha deyək ki, bu durumda Ermənistan əvvəllərdə olduğu kimi, yenə təcriddə qalacaq. Hər halda, Paşinyan administrasiyası məsələdən xəbərdar olmamış deyil. Xəbərdar olub yenə barışmaz mövqe tutduğuna görə, bu nəticəyə gələ bilərik ki, Qərb Ermənistana nəqliyyat əlaqələrinin yaranmaması müqabilində itirəcəklərinin təzminatını ödəməyə boyun olub.

Ümumən, İrəvanı Cənubi Qafqazda anti-Rusiya qalası kimi təsəvvürə gətirən Qərbin ona dəstək məqsədilə çeşidli proqramlar icra etdiyi aşkardır. Paşinyan və komandası isə durumu özünün lokal avantürist maraqları ilə uzlaşdırmaqdadır. Bu səbəbdəndir ki, Ermənistan anti-Azərbaycan siyasətinə köklənib. Ölkə çalışır ki, Qarabağ müstəvisində itirdiklərini bərpa etsin.

***

Ancaq belə bir dolaşıq labirintdə İrəvanın kommunikasiyaların açılmasında tam şəkildə maraqlı olmadığını da söyləmək mümkünsüzdür. Əslində, Qərbin özü də istəyər ki, regionda nəqliyyat əlaqələri bərpa olunsun. Ancaq Rusiyanı hər yerdən təcrid etmək, onun varlığı ilə hesablaşmamaq şərtilə. Ona görə də Rusiya ilə Aİ-nin Cənubi Qafqazda kommunikasiyaların açılması müstəvisindəki əməkdaşlığı A.Qruşkonun təbirincə desək, "Qərbi avropalı həmkarlarımızda birdən-birə sağlam düşüncə yaranarsa, təbii ki, hər hansı qarşılıqlı fəaliyyət sxemləri qarşılıqlı maraqlara cavab vermək üçün bərabər əsasda qurulsa, mümkün olacaqdır". Keçmişdə mövcud istiqamətdə zəngin təcrübə toplanıldığına diqqət çəkən nazir müavini, həmçinin hazırda bununla bağlı heç bir real perspektiv görmədiyini də vurğulayıb. Deyib ki, Aİ Rusiya ilə geosiyasi rəqabətə doğru gedir: "Artıq, dediyim kimi, burada söhbət təkcə Rusiyanı cilovlamaqdan, yəni onu iqtisadi, siyasi, texnoloji sahələrdə inkişaf üçün resurslardan məhrum etməkdən getmir. Məqsəd həm də dünyanın bir çox regionlarında belə rəqabəti inkişaf etdirməkdir. Bu, yeri gəlmişkən, həm Afrikaya, həm də Latın Amerikasına aiddir".

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

REPLİKA

# Arşakyanın yalanı və Moskvanın cavabı

**Sən demə, Ermənistan parlamentinin vitse-spikeri Akop Arşakyan yalan deyirmiş. Niyə də deməsin? Axı ermənidir. Söhbət Roma statutu kimi məsələdən gedirsə, onun cəfəngiyyata varması, qeyri-reallığı reallıq kimi təqdim etməsi də tam mümkündür.**

Bəri başdan deyək ki, Rusiyanın Xarici İşlər Nazirliyi "Lenta.ru"nun sorğusuna cavab olaraq göndərdiyi mətndə Arşakyanı, demək olar, "yalançı" adlandırıb. Sorğu nə ilə bağlı idi, bu barədə söz açmazdan əvvəl bəzi məqamlara aydınlıq gətirək.

Məlum olduğu kimi, Ermənistan parlamenti Beynəlxalq Cinayət Məhkəməsinin Roma əsasnaməsini ratifikasiya edib. Roma statutu kimi də adlandırılan ratifikasiya sənədini ölkənin prezidenti də təsdiqləyib. Bu, o deməkdir ki, sözügedən statut artıq Ermənistan qanunvericiliyinin tərkib hissəsidir. Məğz isə budur: Rusiya Prezidenti Vladimir Putin Ermənistana daxil olacağı təqdirdə, həbslə üzləşəcək. Çünki Beynəlxalq Cinayət Məhkəməsi Putinin və Rusiyanın uşaqların hüquqları üzrə Ombudsmanın həbsinə order verib.

Qeyd edək ki, Roma statutuna bu ilin aprelində Ermənistanın Konstitusiya Məhkəməsi rəy verdi. Həmin rəy sənədin ölkə qanunlarına uyğunluğunu təsdiqlədi. Bundan sonra məsələnin parlament tərəfindən qəbulu uzandı. İş o həddə çatdı ki, durum Avropa dairələrində Ermənistan hakimiyyətinin mətləbdən yayınması kimi qiymətləndirilməyə başlandı. Digər tərəfdən isə ölkədə Roma statutu ətrafında ictimai diskussiyalar gücləndi və bildirildi ki, sənəd İrəvanın Moskva ilə münasibətlərinə mənfi təsir göstərəcək. Onu da deyək ki, Rusiya rəsmiləri də çıxışlarında bu məqama diqqət çəkdilər. Ancaq erməni iqtidarı yolundan dönmədi və nəhayət, sənəd bu ilin sentyabrın sonunda qəbul edildi.




A.Arşakyan isə bir neçə gün əvvəl bildirdi ki, guya Ermənistan Rusiyaya Roma statutunun təsir dairəsindən uzaqlaşmaq üçün təkliflər verib, məsələni ikitərəfli əsasda imzalanacaq müqavilə ilə tənzimləməyi istəyib. Onun sözlərindən belə çıxdı ki, Kreml həmin təklifləri cavabsız qoyub. Ən əsası isə Arşakyan bir qədər də "irəli gedərək" dedi ki, Roma statutunun qüvvəyə minməsinə hələ vaxt var. Yəni, bu, o demək idi ki, Rusiyanın, başqa sözlə desək, qaçıb qatara yetişmək şansı saxlanmaqdadır. Hər halda, gənc Arşakyanın Moskva ilə məzələndiyi ortadadır.

***

Əlqərəz, indi məlum olur ki, Ermənistan parlamentinin vitse-spikerinin bildirdikləri əsl cəfəngiyyat imiş. Rusiya XİN-in izahından bu qənaətə gəlmək mümkündür ki, Roma statutundan yan keçmək üçün ikitərəfli əsasda tədbir görmək təklifini İrəvan Moskvaya deyil, Moskva İrəvana veribmiş. Deməli, Arşakyan yalançıdır, özü də yekəsindən. Həm də ona görə ki, o, məsələni fərqli təqdim edib. Və deməli, erməni vitse-spiker təkcə böyük yalançı deyil, eyni zamanda, sərsəmdir. Beləsinə el dilində boşboğaz deyirlər...

***

Məsələ burasındadır ki, Rusiya ikitərəfli məsləhətləşmələr zamanı Ermənistana Roma əsasnaməsini ratifikasiya etmədən də Beynəlxalq Cinayət Məhkəməsinin mexanizmlərindən faydalanmağın mümkünlüyünü bildirib. Bu, tamamilə yeni situasiya yaradır. Yəni, bir halda ki, Nikol Paşinyan başda olmaqla, Ermənistan rəhbərliyi Roma statutunun ratifikasiyasının Azərbaycana qarşı olduğunu bildirirsə və deyirsə ki, məsələ həm Bakını beynəlxalq məsuliyyətə cəlb etmək, həm də ölkənin yeni təhlükəsizlik alətləri qazanması baxımından vacibdir, o zaman Kreml bunun sözügedən statutu qəbul etmədən də reallaşdırılması metodlarını diqqətə çatdırıb. "Belə bir təcrübə var. Təəssüf ki, bizim kompromis həll yollarımıza məhəl qoyulmadı", - deyə Rusiya XİN vurğulayıb.

Belədə Kremlin baş xarici siyasət idarəsi İrəvanın "sırf siyasi səbəblərə görə" Roma statutunu ratifikasiya etdiyini bildirməkdə haqlıdır. Eləcə də məhz belə bir fikir irəli sürməkdə: "Əgər İrəvan öz əlləri ilə yaratdığı problemlərin həllində maraqlıdırsa, o zaman, fikrimizcə, Ermənistan hüquq sistemi çərçivəsində bunun üçün imkanlar var".

***

Deməli, Rusiya XİN dünənki açıqlaması ilə Ermənistan rəhbərliyində təmsil olunanların yalanlarını ifşa etmiş olur. Həqiqətən, qurumun "Lenta.ru"ya verdiyi cavab məntiqidir. O anlamda ki, problemi yaradan Ermənistandırsa, onu aradan qaldırmağı da özü düşünməli, kənarda müqəssir axtarmamalıdır. Problem isə vurğulandığı kimi, bilavasitə siyasi mahiyyət daşımaqdadır. Axı, indiki durumda Roma statutu sırf Prezident Putinin həbsi kontekstində dəyərləndirilən məsələdir. Yəni, durum başqa interpretasiyalara, heç cür imkan tanımayacaq qədər prinsipial əhəmiyyət daşımaqdadır. Əslində, N.Paşinyanın və onun komandasında təmsil olunanların da, guya, Roma əsasnaməsi ilə Azərbaycanı məsuliyyətə cəlb etmək niyyətlərinə dair söylədikləri də cəfəngiyyatdan başqa bir şey deyil. Tam aydındır ki, bu yolla ölkəmizə qarşı heç bir nəticə əldə etmək mümkün olmayacaq.

***R.ƏVƏZ***
***XQ***

---

(əvvəli 1-ci səhifədə)

# "Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımışdısa, niyə antiterror tədbirləri oldu?"

## *Rusiyalı politoloq Sergey Markedonovun bu sualı siyasi ittihamdır*

Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Putin də Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalana bilməsindən söz açıb. Əlbəttə, o, bu fikri dilə gətirərkən, Qarabağın Ermənistan tərəfindən Azərbaycana güzəştə gedilməsi, İrəvanın bölgənin ölkəmizin tərkib hissəsi kimi tanıması məntiqinə söykənib və bildirib ki, demarkasiya və delimitasiya məsələləri texniki xarakter daşımaqdadır.

Əlbəttə, Putin "Valday" Diskussiya Klubunda çıxış edərkən, Ermənistanın vaxtilə Azərbaycana qarşı barışmaz mövqeyinin ayrı-ayrı detallarına varıb vəziyyəti izah etsə də, sərhədlərin delimitasiya və demarkasiya müstəvisində sülh sazişinin ayrı-ayrı hissələrinə toxunmamışdı. Ancaq həmin hissələr var və yekun razılaşmanın əldə edilməməsi, yaxud əldə olunması istiqamətində işlərin ləngliyi təəssüratı onu deməyə əsas verir ki, Azərbaycan-Ermənistan münasibətlərinin yeni rəvan müstəviyə çıxması üçün hər məqam vacibdir. Bu baxımdan rusiyalı politoloq Sergey Markedonovun bildirdikləri də həmçinin.

Politoloq Markedonov sual verir: Bir halda ki, Ermənistan Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımışdısa, bəs nəyə görə 2023-cü il sentyabrında lokal xarakterli antiterror tədbirləri gerçəkləşdi? Doğrudan da Markedonov belə bir sual səsləndirməkdə haqlıdır.

Qeyd edək ki, rusiyalı politoloq özünün sosial şəbəkə hesabındakı paylaşımında Ermənistan baş naziri Nikol Paşinyanın oktyabrın sonunda səsləndirdiyi fikirlərin üzərində dayanıb. Məlum olduğu kimi, erməni hökumət rəhbəri Azərbaycanla sülhün bərqərar olması üçün üç əsas prinsipin razılaşdırıldığını bəyan etmişdi. O bildirmişdi ki, tərəflər razılaşdırılmış bu prinsiplərə sadiq qalarlarsa, o zaman sülh və münasibətlərin nizamlanması haqqında sazişin imzalanması reallaşacaq.

Paşinyanın üç prinsipin razılaşdırılması ilə bağlı çıxışından üç gün əvvəl isə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan oktyabrın 5-dəki Qranada bəyanatına istinad etmişdi. Məlum olduğu kimi, Qranadadakı sənədləri Nikolla yanaşı, Almaniyanın Federal Kansleri Olaf Şolts, Fransa prezidenti Emmanuel Makron və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel imzalamışdı.

O da məlumdur ki, Prezident İlham Əliyev həmin sənədlərə imza atmayıb. Nəinki imza atmayıb, habelə İspaniyada danışıqlara getməkdən imtina edib. Belədə Markedonov çox haqlı olaraq sual verir ki, hansı razılaşmadan söhbət gedə bilər? O, yeni suallar da verir: yəni, nəqliyyat kommunikasiyalarına dair tam anlaşma var? "Dəhliz mövzusu" keçmişdəmi qaldı, yoxsa yenə özünü xatırladacaq? "Bu arada demarkasiyanın da bir sıra nüansları var. Eksklavlar məsələsi təkcə çərçivə sazişi deyil, praktik həll tələb edir", - deyə rusiyalı politoloq əlavə edib.

S.Markedonov onu da bildirib ki, bu və ya digər formada bu üç məqam daha əvvəl, o cümlədən, Ermənistan baş nazirinin çıxışlarında ortaya çıxmışdı. Söhbət ondan gedir ki, Ermənistan və Azərbaycan Ermənistan SSR və Azərbaycan SSR sərhədləri daxilində bir-birinin ərazi bütövlüyünü tanımalıdırlar. İki ölkənin ərazisi 29,8 min kvadratkilometr (Ermənistan) və 86,6 min kvadratkilometr (Azərbaycan) olmaqla artıq dövlətlərarası demarkasiya və qarşılıqlı tanınmanın əsası adlandırılmalıdır. İkinci prinsip 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında demarkasiyanın aparılmasıdır: "Belovejsk razılaşmasından sonra bu sənəd Sovet İttifaqının dağılmasından sonrakı yeni geosiyasi reallığı möhkəmləndirdi. Və nəhayət, tərəflər nəqliyyat kommunikasiyalarını blokdan çıxarmalıdırlar".

Rusiyalı politoloq yekunda belə qərara gəlir ki, Avrasiyada uzun müddətdir davam edən münaqişələrdən birinin sona çatması ilə bağlı nəticə çıxarmağa tələsmək, zənnimcə, hələ tezdir. Amma, o, tezliklə sülh müqaviləsi adlanacaq müəyyən sənədin meydana çıxmasının mümkünlüyünü də yazıb. "Ancaq bunun təlatümlü bölgəyə həqiqi sülh gətirəcəyi sual olaraq qalır", – deyə rusiyalı politoloq fikrini yekunlaşdırıb.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qarabağ ermənilərı alətə çevriliblər

## Paşinyan onlardan Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etmək istəyir

(əvvəli 1-ci səhifədə)

Qarabağdan köçənlərin xeyli hissəsi Ermənistanda da qalmayıb. Buradan üçüncü ölkələrə, əsasən Rusiyaya gediblər. İndi Nikol Paşinyan iqtidarı “qalanlara bərəkət” deyərək onlara vətəndaşlıq vermək niyyətindədir. Hökumətin noyabrın 2-də keçirilən iclasında N.Paşinyan Qarabağdan köçənlərə ölkə vətəndaşlığının verilməsi prosesinin sürətləndirilməsi barədə göstəriş verib. Paşinyan bunun mümkün qədər tez təşkil edilməsinin vacibliyini diqqətə çatdırıb: “Qarabağdan olan soydaşlarımız Ermənistan Respublikası vətəndaşlığını almaq üçün müraciət edirlər. Bizim vəzifəmiz bu prosesi mümkün qədər tez təşkil etməkdir”.

Güman etmək olar ki, Nikolun bu canfəşanlığında məqsəd onları daimi elektorata çevirməkdir. Son üç ildə üzləşdiyi silsilə məğlubiyyətlər N.Paşinyanın ölkə daxilində nüfuzunun kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarıb. Düzdür, o, 2021-ci ildə keçirilən növbədənkənar parlament seçkilərində qalib gələrək öz kürsüsünü növbəti beş il üçün qoruyub saxlamağı bacarıb. Amma Paşinyanın həmin qələbəsi parlaq qələbə deyildi. O mənada ki, Ermənistan vətəndaşları yaxşı ilə pis arasından deyil, pislə ən pis arasından seçim etmək məcburiyyətində qalmışdılar. Sentyabrın 17-də İrəvan şəhər meriyasına keçirilən seçkilərdə hakim “Mülki müqavilə” partiyasının namizədi Tiqran Avinyan çox çətinliklə – cəmi 30 faiz səs toplamaqla qalib gəlib. Bu baxımdan Nikolun Qarabağ haylarına vətəndaşlıq, birdəfəlik ödənişlər, aylıq pul vəsaiti və gələcək perspektivlə bağlı müxtəlif şirnikləndirici vədlər verməklə, onların timsalında elektorat bazası yaratmaq niyyətində olduğunu güman etmək olar. Beləliklə, aydın olur ki, Qarabağ ermənilərı Paşinyana soydaş kimi yox, vəsitə kimi lazımdır.

Ancaq Paşinyanın Qarabağ ermənilərinə vətəndaşlıq vermək istəyinə qarşı çıxanlar da az deyil. İctimai fəaliyyətlə məşğul olan bir sıra şəxslər və siyasi qüvvələr bununla onların geri qayıtmaq məsələsinin üzərində birdəfəlik xətt çəkiləcəyini bəyan edirlər. Məsələn, İkinci Qarabağ müharibəsindən sonra Hadrutu tərk edərək İrəvanda məskunlaşan



ictimai təşkilat rəhbəri Levon Hayriyan həmyerlilərini Ermənistan vətəndaşlığını almaqdan imtina etməyə çağırıb. O, qarabağlıların “pənah apardıqları” Hayastanda üzləşdikləri acınacaqlı durumu jurnalistlərə belə təsvir edib: “2020-ci ildə 44 günlük müharibədən sonra Ermənistanda məskunlaşan 21 minə yaxın Qarabağ sakini sentyabr ayından bəri heç bir dəstək və ya hökumət ödənişi almayıb. Biz may ayından bəri hər ay verilən 40 min dram dövlət dəstəyini almamışıq, sentyabrdan isə müavinət və pensiyalar ödənilmir. İnsanlar hətta uşaqlar üçün verilən müavinəti də almayıblar. Yəni, bizə 4 ay idi borclu idilər, indi isə 6 aydır ki, borcludurlar. Onların bu pulu vermək niyyəti yoxdur, müzakirə də etmirlər”.

Hayriyan qeyd edib ki, tələb etdikdə verilən cavab eyni olur: biz hələ heç nə bilmirik. “Onlar deyirlər ki, bu proqramı bizim üçün “Artsax hökuməti” həyata keçirib və “Artsax hökuməti” artıq mövcud olmadığına görə nə edəcəklərini bilmirlər. Bu, öz işini tamamilə bilməməkdən xəbər verir. Qeyri-peşəkarlıq bu hakimiyyətin vizit kartına çevrilib”, – deyə ictimai təşkilat rəhbəri vurğulayıb.

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti bu yolla Qarabağdan köçkün düşənlərin çətin vəziyyətindən istifadə etməyə çalışır. Hayriyan Ermənistan vətəndaşlarının, ikili vətəndaşlığı olan şəxslərin və hətta vətəndaşlığı olmayan şəxslərin də pensiya almaq hüququna malik olduğunu vurğulayıb.

Qarabağdan köçən ermənilərə vətəndaşlıq verilməsini, onlarla bağlı məsələnin birdəfəlik bağlanmasını Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyanın “Nyus.am”a müsahibəsində səsləndirdiyi fikirlər də təsdiqləyir. O qeyd edib ki, Ermənistanla Azərbaycan arasında qaçqın düşən şəxslərin qarşılıqlı olaraq geri qaytarılmaları, o cümlədən Qarabağ ermənilərinin mümkün qayıdışı məsələsi 2020-ci il 10 noyabr tarixli Bəyanatın yeddinci bəndində təsbit olunub, lakin sülh müqaviləsində bu barədə söhbət olmayıb və yoxdur.

Qarabağ ermənilərinin mümkün qayıdışının iki ölkə arasında müzakirə edilib-edilməməsinə dair suala cavab verən Marukyan deyib: “Mən düşünürəm ki, bu məsələ Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi kontekstində müzakirə mövzusu olsun. Bu insanların hüquqları məsələsi qalır, lakin Ermənistan–Azərbaycan sülh müqaviləsi kontekstində müzakirə olunmur. Bu məsələ ayrıca müzakirə oluna bilər. İndi biz yeni reallıqlar dövründə yaşayırıq”.

Qarabağın keçmiş qondarma rejiminin “dövlət institutlarının” saxlanması məsələsinə gəlincə, Marukyan bildirib ki, Ermənistanda bunu etmək mümkün deyil: “Ermənistan Respublikası öz ərazisində digər ölkələrin dövlət qurumlarını saxlaya bilməz. Yeganə istisna yalnız xarici ölkələrin akkreditasiyadan keçmiş diplomatik nümayəndəliklərinə aiddir. Ermənistanın milli təhlükəsizliyi kontekstində respublikamızın ərazisində belə institutların formalaşdırılması və saxlanılması düzgün deyil. Mühacirətdə olan hökumətlər var və qoy olsunlar. Amma Ermənistanın bununla heç bir əlaqəsi yoxdur”.

**Siyasi şərhçi Rizvan Hüseynov** da bu fikirdədir ki, Nikol Paşinyan Qarabağ ermənilərindən öz məqsədləri naminə istifadə etmək niyyətindədir. Onun sözlərinə görə, burada həm onların gələcəkdə hakim siyasi qüvvənin elektorat bazasına çevrilmələri, həm də mümkün olarsa, Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə edilmələri nəzərdə tutulur. Bununla belə, R.Hüseynov qeyd edib ki, rəsmi



İrəvanın bu kimi addımlarla Bakıya təzyiq göstərməyə çalışması əbəsdir: “Ermənistan tərəfi Qərb strukturlarının Qarabağ ermənilərinin qayıdışı məsələsinin üzərində Azərbaycana təzyiq göstərmələrinə çalışır. Ancaq bütün bunlar əbəsdir. Əvvəla, ona görə ki, onları heç kim zorla deportasiya etməyib. Qanunlarımız çərçivəsində, bayrağımız altında yaşamaq istəməyiblər və çıxıb gediblər. Hamı yaxşı bilir ki, onlara qarşı heç bir etnik təmizləmə və sair hallar olmayıb. Bunu Xankəndiyə səfər edən BMT-nin iki missiyası da təsdiqləyib. Bundan başqa, orada Beynəlxalq Qırmızı Xaç Komitəsinin ofisi, əməkdaşları var. Həmçinin, Rusiya sülhməramlıları oradadırlar. Necə oldu ki, bu qədər qurumların gözünün qabağında etnik təmizləmə aparılır. Bunu heç kim görmür, amma Ermənistan hakimiyyəti görür?!”

Bununla belə, siyasi şərhçi Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyanın qondarma rejimin respublika ərazisində fəaliyyətinin qeyri-mümkünlüyü ilə bağlı açıqlamasını müsbət məqam hesab etdiyini bildirib. Əlavə edib ki, rəsmi İrəvan bundan sonra da oxşar davranış nümayiş etdirərsə, sülh müqaviləsi üzərində iş sürətlənə bilər.

*Səxavət HƏMİD*
*XQ*

# Berbok bölgəyə Brüsselin elçisi kimi gəlib, yoxsa...

## Almaniyalı nazirin İrəvanda verdiyi açıqlamalar ermənilərdə qıcıq yaradıb

(əvvəli 1-ci səhifədə)

### Brüsselə dəvət qüvvədədir

Aydın məsələdir ki, Berbok ölkəsinin də üzvü olduğu “Avropa İttifaqının uzun illər ərzində Ermənistan və Azərbaycan arasında ədalətli vasitəçi kimi çıxış etdiyini” nəzərə çatdırmalı idi. Üstəlik, o, qurumun rəhbərlərinin xidmətlərini də dəyərləndirməyi unutmadı: “Mən əminəm ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin davamlı səyləri iki ölkə arasında sülhün əldə olunmasında körpü rolunu oynayacaq. Məhz buna görə sülh danışıqlarının növbəti raundunu formalaşdırmaq çox vacibdir”.

Mətbuat konfransında Annalena Berbok, həmçinin AI mülki missiyasının Ermənistanda fəaliyyətini gücləndirmək istədiklərini, amma bu “missiyanın Azərbaycan üçün də sərfəli olmasının” vacibliyini önə çəkməsi, əlbəttə ki, hay mediasını “qıcıqlandırmaya” bilməzdi.

Almaniya XİN-in başçısı mətbuat konfransında erməni jurnalistin “Ermənistana hücum edəcəyi təqdirdə Almaniya Azərbaycana qarşı sanksiyaların tətbiqinə hazırdırmı?” – sualına birbaşa cavab verməkdən yayınması isə erməni ekspertlərin müzakirə predmetinə çevrilib. O, bunun əvəzinə İrəvan və Bakı arasında sülh dialoqundan danışmağa üstünlük verib: “Mən münasibətlərin gərginləşməməsi üçün bütün imkanlardan yararlanmağın tərəfdarıyam. Bu barədə hər yerdə danışıram. Almaniya həm Ermənistanın, həm də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Biz hər iki ölkənin yanında durmuşuq”.

Hayastanın yazılı və elektron mediası bölgədəki mövcud duruma və reallığa məhz bu cür loyal və bitərəf münasibətinə görə, Annalena Berboku əməlli-başlı “yıxıb–sürüyür”. Axı rəsmi İrəvan sülh danışıqlarının Brüssel formatında “böyük bacısı” Parislə həmfikir, yəni, haylara rəğbəti olan tərəf kimi görünən Almaniyanın baş diplomatından birmənalı açıqlamalar gözləyirdi. Cənubi Qafqaza, ilk növbədə, Avropa İttifaqının elçisi qismində gələn almaniyalı nazirin çıxışında daha çox iqtisadi məsələlərə köklənməsi, ölkəsinin Rusiyanın enerji asılılığından azad olmasından fəxrlə danışması, erməni həmkarı ilə bərpaolunan enerji sahəsində əməkdaşlığın perspektivi ilə bağlı mövzuları müzakirə etməsi ekspertlərin diqqətindən yayınmayıb.

Berbokun İrəvana səfəri çərçivəsində Ermənistan XİN başçısının müavini Paruyr Ovannisyanın müşayiəti ilə “soyqırımı qurbanları”nı anım memorialını ziyarət etməsi, “günahsız qurbanların xatirəsini anması”, Ararat vilayətində “Dağlıq Qarabağdan (?) zorla köçürülmüş şəxslərlə görüşüb, onların məişət şəraiti ilə tanış olması”, Almaniyanın bu adamlara “humanitar yardım qismində 9,3 milyon ABŞ dolları vəsait ayırmasını” bildirməsi (news.am) bəlkə də yerli ictimaiyyətin gözündə “özünüreabilitasiya” jestləri idi. Onun həmin Ararat vilayətində Yerasx (Arazdəyən –red.) icması ilə görüşü, AI-nin oradakı müşahidəçiləri ilə birgə Ermənistan–Azərbaycan sərhədindəki vəziyyətlə tanış olması da əvvəlcədən düşünülmüş “ssenari”yə bənzəyirdi.




### Hayların “siyasi strateqləri”nin şərhləri

“Azərbaycan “Dağlıq Qarabağ” (?) etnik təmizləməyə (?) məruz qoyduqdan sonra Avropa İttifaqının vasitəçiliyi ilə Ermənistanla sülh danışıqlarından imtina edir. İlham Əliyev açıq şəkildə Moskva formatına üstünlük verdiyini bildirib”.

Erməni bloqerlər sosial şəbəkədə yerləşdirdikləri çoxsaylı şərhlərdə reallıqdan uzaq, sağlam məntiqə sığmayan mülahizə və proqnozlar, bir çox hallarda isə siyasi şantaj “qoxusu gələn” iddialar irəli sürürlər. Misal üçün, onlardan biri Rusiyanın iki ölkə arasında vasitəçilik roluna bu cür “aydınlıq” gətirir: “Söhbət münaqişənin həll edilməməsindən, qanlı müharibələrin uzadılmasından gedir. Almaniya Xarici işlər naziri buna eyham vuraraq deyir ki, münaqişənin dinc yolla həlli yolundan çəkilmək güclərin marağına uyğun hərəkət etmək deməkdir. Sözdə “boz zona”dan danışan vasitəçilər öz mənafelərinə uyğun hərəkət edirlər”.

Robert Ananyan adlı bloger Azərbaycanı Moskva formatına üstünlük verməkdə ittiham etməyə girişir: “Azərbaycan Ermənistanla “soyuq müharibə”yə üstünlük verir. İlham Əliyev Qərbin görüş təkliflərini rədd edərək Rusiyanı seçir. Əgər Azərbaycan Almaniya Xarici işlər nazirini qəbul etməsə, AI Ermənistana təhlükəsizlik və müdafiə dəstəyini daha da artırmalıdır. Bu dəstək o qədər olmalıdır ki, Rusiya–Azərbaycan alyansının hərbi-siyasi şantajı öz effektini itirsin”.

Hayların “siyasi texnoloqları” Ermənistan hakimiyyətini təhlükəsizlik sistemini gücləndirməyə səsləyirlər: “Bu, İrəvana müqavimət göstərmək, Moskvanın görüş dəvətini qəbul etməmək üçün yardımçı olacaq. İndi biz Berbokun Bakıda aparacağı danışıqların nəticəsini gözləyəcəyik. O, İrəvanda ümid etdiyini bildirib ki, Avropa Şurası prezidentinin səyləri boşa çıxmayacaq, danışıqlar prosesi bərpa olunacaq”. Arzuladıqlarını reallıq kimi qələmə vermək hayların çoxəsrlik xislətinin fəsadıdır. Almaniyanın baş diplomatı İrəvana ilk səfərində separatçı-daşnakların ümidlərini puça çıxarmaqla onların təbliğat maşınına üfürmək üçün “bol material” vermiş oldu. Onsuz da son nəticədə tirajladıqları ultimatum tonlu “feyk-xəbərlərə” özlərindən qeyri heç kim reaksiya verməyəcək.

### Berlin nüfuzunu bərpa etməyə çalışır

Ümumiyyətlə, AFR XİN başçısının bölgəyə səfərinin əsas məqsədi nədir? Berlinin Ermənistan və Azərbaycan arasında sülhə yardımçı olmaq ehtiyacı nədən qaynaqlanır? Doğrudanmı, Almaniya Cənubi Qafqazın iki qonşu ölkəsi arasında yeni müharibə ehtimalından belə narahatdır, yoxsa burada hansısa görünməyən səbəblər var?

**Düşünürük ki, bu suallar ətrafında isveçli filosof, siyasi icmalçı Qreq Saymonsun fikirləri oxucularımız üçün də maraqlı olacaq:**

– Hazırda Almaniya Birləşmiş Ştatların Avropada müştəri-dövləti qismində çıxış edir. Çünki hələ Ukraynada hərbi əməliyyatlar başlanana qədər Berlin həm qitədə, həm də dünyada “keyfiyyət əmsalının” və nüfuzunun əhəmiyyətli hissəsini itirmişdi. İndi isə bu ölkə acınacaqlı iqtisadi vəziyyətdədir. Almaniya iqtisadiyyatı sistemli şəkildə sənayesizləşməyə doğru



gedir. Əslində, bütövlükdə “köhnə qitə” bunun ağrısını yaşamaqdadır. Ayrıca Almaniyanı götürdükdə, bu ölkə ideoloji baxımdan kor-koranə “yaşıl siyasəti” təqib etməsi səbəbindən çox ciddi enerji böhranı ilə üzləşib. Yaranmış vəziyyət sosial sahədə “əks-səda” verdiyindən Almaniya ictimaiyyəti arasında narazılığın səviyyəsi getdikcə artmaqdadır. Bütün bunları nəzərə alaraq onu deyə bilərəm ki, Berlinin Ermənistan və Azərbaycan arasında sülh danışıqlarında hansısa formada iştirakı bir növ bəhanə, pərdələnmək üsuludur. Belə götürəndə Amaniya bu xarakterli platformalarda aparılan fəaliyyət sarıdan o qədər də geniş təcrübəyə malik deyil. Çox güman ki, Berbokun Bakıya səfərinin əsl səbəbi Azərbaycanın Almaniyanı enerji daşıyıcıları ilə təchiz etmək istəyini və qabiliyyətini yoxlamaqdan ibarətdir.

İsveçli politoloqun fikrincə, Almaniya Xarici işlər nazirinin İrəvanda sərgilədiyi diplomatik davranış Berlinin Bakıdan umacağının olduğunun təzahürü idi: “Bunu nazirin İrəvanda istifadə etdiyi siyasi ritorikadan da aydın görmək mümkün idi. Əlbəttə ki, Avropanın aparıcı dövləti özünə rəva görməz ki, onu çarəsiz, köməyə möhtac hesab etsinlər. Elə Ermənistan və Azərbaycan arasında özünəməxsus vasitəçilik missiyasının görüntüsünü yaratmaq da rəsmi Berlinin bu istəyindən qaynaqlanır. Həmin “siyasi taktikanın” xanım Berbokun şəxsən özü tərəfindən düşünüldüyünü güman etmək sadəlövhlük olardı. O, Bakıya Brüsselin təlimatı ilə deyil, birbaşa Almaniyanın iqtisadi maraqlarının rəsmi təmsilçisi kimi təşrif buyurub. Hər halda, onun İrəvandakı açıqlamalarından yaranan fərziyə və gümanlar bu qənaətə gəlməyə əsas verir...

Deməli, skandinaviyalı filosof Saymonsun şərhindən belə nəticə hasil olur ki, daxildə iqtisadi çətinliklərlə üzləşən Berlin Bakının neftinə, qazına ehtiyac duyur və bu ehtiyacını reallaşdırmaq, eyni zamanda nüfuzunu qoruyub saxlamaq üçün AI-nin sülhyaratma missiyası “çətirindən” ustalıqla yararlanır. Olsun. Azərbaycandan ötrü Almaniya XİN rəhbərinin bu cür “diplomatik taktikadan” istifadə etməsinin heç bir ziyanı yoxdur. Bu müstəvidə əlaqələr, əməkdaşlıq, təbii olaraq, qarşılıqlı maraqlar əsasında qurulur.

### Məqsəd bölgədə Rusiyanı əvəzləməkdir

Avropa İttifaqının iki ölkə arasında sülh danışıqlarında vasitəçiliyi, bütövlükdə Cənubi Qafqazda cərəyan edən hadisələrə yaxından müdaxilə cəhdlərinin arxasında geosiyasi maraqların dayandığı hamıya bəllidir. Münaqişəyə son qoyulması, bölgəyə sülhün, əmin-amanlığın qədəm qoyması region ölkələri kimi, Qərbin də işinə yarıyacaq. Bu istiqamətdə avropalı aktorların səylərinin intensivləşməsinə elə bu prizmadan yanaşmaq doğru sayılar.



**Bölgəyə sülhün gəlməsini Almaniyanın həmdan çox arzuladığını söyləyən Qara Dəniz Beynəlxalq Universitetinin professoru, politoloq Nika Çitadze vurğunu böyük güclərin qarşıdurması üzərinə yönəltdi:** “Almaniya Ermənistan və Azərbaycan arasında münaqişənin tam və qəti şəkildə nizamlanması, iki ölkənin sülh müqaviləsini imzalamaları məqsədilə danışıqlarda vasitəçilik prosesinə cəlb olunmasında çox maraqlıdır. İlk növbədə isə Almaniya Avropa İttifaqı ilə birlikdə Rusiyanı bu missiyadan məhrum etmək uğrunda çalışır”. Professor hesab edir ki, bu prosesin gedişində Berlinin öz korporativ maraqlarını da təmin etməyə çalışmasına normal yanaşmaq lazımdır.

Qərbli və okeanın o tayındakı sülh vasitəçilərinin əsas niyyətlərinin Moskvanı bölgədə “oyundənkənar” vəziyyətə salmaq olduğu məlumdur. Bu koalisiyanın ayrı–ayrı üzvlərinin Cənubi Qafqazda öz maraqlarını güdməsi də başadüşüləndir. Məsələyə bu kontekstdən yanaşanda, Almaniyanın Azərbaycanla enerji daşıyıcılarının nəqli ilə bağlı anlaşmaya gəlmək təşəbbüsü tamamilə normal qarşılanmalıdır. Axı, Avropanın enerji təhlükəsizliyinin təminatında önəmli rol oynayan Bakı ilə bu xarakterli əməkdaşlığa çoxları maraq göstərir. Berlin də onlardan biri. Əhalisini qazdan və elektrik enerjisindən qənaətlə istifadə etməyə çağıran Almaniya hökuməti Azərbaycanla səmərəli və qarşılıqlı etimada söykənən əməkdaşlıqdan yalnız xeyir görə bilər.

Beləliklə, Almaniyanın Xarici işlər naziri Annalena Berbokun regiona ilk səfərinin marağlı məqamlarla yadda qalacağını indidən söyləyə bilərik.

*İmran BƏDİRXANLI*
*XQ*



# Ulu öndərin xüsusi tapşırığı

**Sumqayıtın inkişafı, onun nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə sıx bağlıdır. Həmin dövrdə Ulu öndərin böyük qayğısı sayəsində şəhər tarixinin əlamətdar səhifələri yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Sumqayıtda yüngül sənaye müəssisələri yaradılıb, kimya sənayesi inkişaf etdirilib, yeni istehsal sahələri istismara verilib.**

Bu yaxınlarda dünyasını dəyişmiş kimyaçı alim, Əməkdar mühəndis Zülfi Sadıxov hər görüşümüzdə Ümummilli liderin Sumqayıta diqqət və qayğısından ağızdolusu danışar, respublika rəhbərinin Sumqayıta səfərlərinin canlı şahidi kimi, görülən işlərin əhəmiyyətini konkret faktlarla əsaslandırardı. Onun dediyinə görə, 70-ci illərin əvvəllərində əhalinin məişət kimyası məhsullarına olan tələbatını ödəmək məqsədilə Cənubi Qafqazda ilk dəfə olaraq Sumqayıt Məişət Kimyası Zavodu yaradılıb, Superfosfat Zavodunda yüksək texnologiya əsasında dənəvər superfosfat gübrəsi istehsalatı işə salınıb.

1970–73-cü illərdə Üzvi Sintez Zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başlayıb. 1974-cü ildə isə Sintetik Kauçuk Zavodunda yüksək markalı kauçuk istehsal edən sex yenidən qurulub, istehsal gücü xeyli artırılıb. 1969–82-ci illərdə Sumqayıtda istifadəyə verilən Kompressorlar Zavodu, Üst trikotaj və Xovlu iplik fabrikləri, Süd və Yeyinti Məhsulları kombinatları H.Əliyevin xidməti idi.

**Dostumun qeyd dəftərindən bəzi sətirləri olduğu kimi oxucuların diqqətinə çatdırıram.**

...1970–80-ci illərdə Sumqayıt məhsulları SSRİ-nin 700 şəhərinə ixrac olunurdu. Ən başlıcası isə respublika rəhbərinin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi. Respublikaya 34 illik rəhbərliyi dövründə 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb və yeni inkişaf mərhələsinin başlanğıcı olub. Məsələn, 1971-ci ilin aprelində Heydər Əliyev ilk dəfə olaraq 22 yaşlı Sumqayıta səfərə gəlib. Həmin gün o, Sov.İKP-nin XXIV qurultayında iştirak edən Rumıniya nümayəndə heyəti ilə birgə Üzvi Sintez Zavodunda olub, sexləri gəzərək buraxılan məhsulların çeşidi, keyfiyyəti, eləcə də fəhlələrin iş və məişət şəraiti ilə maraqlanıb. 1973-cü ilin noyabrında şəhərin metallurgiya nəhəngi olan Boruyayma Zavodunda istehsalın artırılması ilə bağlı görüş keçirib. 1974-cü ilin fevralında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini Nikolay Tixonovla birlikdə şəhərimizə gəlib, yenidən Boruyayma Zavoduna və Kimya Sənayesi İstehsalat Birliyinə baş çəkib. Həmin ilin noyabrında Sumqayıtın 25 illiyinə həsr olunan tədbirlərdə iştirak edərək fəallar yığıncağında nitq söyləyib, gənclik şəhərinin yaşıllaşdırılmasını, memarlıq simasının dəyişməsini yüksək qiymətləndirib.

Zülfi Sadıxov xatirələrində Ulu öndərin sonrakı illərdə Sumqayıtdakı Alüminium Zavodunun, Üzvi Sintez İstehsalat Birliyinin problemləri ilə tanış olaraq dəyərli məsləhətlər verdiyini xüsusi vurğulayır. Azərbaycana rəhbərliyinin ikinci dönəmində 6 dəfə gənclik şəhərinə gəlmiş dahi şəxsiyyətin kimya sənayesinin inkişafına xüsusi diqqətlə yanaşdığını qeyd edir. Buna misal olaraq, 1999-cu ildə EP–300 kompleksində buxar-generator qurğusunun özülünün qoyulmasını, iki il sonra isə qurğunun işə salınmasını göstərir. Bütün bu tədbirlərdə qabaqcıl kimyaçı-mühəndis olan Zülfi Sadıxov şəxsən iştirak edib, ölkə rəhbərinin şəhərin sənaye potensialını gücləndirən yeniliklərə necə sevindiyinin şahidi olub.

İndi bəhs edəcəyim əhvalat barədə bir dəfə də yazmışdım. Dostumun dediyinə görə, 1981-ci ildə o, "Kimyasənaye" İB-nin ən böyük sulfanol istehsalı kompleksinə rəhbərlik edirdi. Yalnız Sumqayıtda hazırlanan həmin məhsula – yuyucu vasitələrin istehsalında əsas xammal olan sulfanola İttifaqın bütün respublikalarında tələbat o qədər böyük idi ki, Kreml rəhbərliyi "Kimyasənaye"nin fəaliyyətini daim diqqətdə saxlayırdı. Birliyin baş direktorunun kabinetindəki "hökumət telefonu" susmaq bilmir, Moskva və Bakıdan edilən zənglər ara vermirdi.

Bir gün edilən zəng isə müəssisədə əsl həyəcan doğurdu: Baş direktor Əliş Mustafayev sulfanol buraxılışına bilavasitə cavabdeh olan istehsalat rəisləri Zülfi Sadıxov və Akif Məmmədovla birlikdə təcili MK-ya çağırılmışdı. İstehsalat rəislərinin də "yuxarı"ya çağırılması məsələnin ciddiliyindən xəbər verirdi.

Ovaxtkı Mərkəzi Komitə katibi Həsən Seyidov onları qarşılayıb, birbaşa mətləbə keçərək bildirib ki, Moskva "kişi"yə (o, Heydər Əliyevi nəzərdə tuturdu – R.O.) rahatlıq vermir, sulfanolun istehsalını artırmağı tələb edir. Odur ki, nəyin bahasına olur-olsun, işi daha da gücləndirmək lazımdır. Birinci katibin tapşırığı budur: Bütün potensialı səfərbər edib, buna nail olun!

Məsələ onda idi ki, sulfanolun istehsalında hər hansı bir problem və ya ləngimə olurdusa, keçmiş ittifaqın onlarla müəssisəsinin işinə ciddi əngəl törənir, boşdayanmalar əmələ gəlirdi. İstehsalçılarından birinin həm də Sumqayıt Məişət Kimyası Zavodunun olduğu yuyucu vasitələrin çatışmazlığı respublikalarda əlavə gərginlik yaradırdı. Bu isə Kremldə "baş ağrısı"na çevrilir və Bakıya edilən zənglər ara vermirdi. Sulfanol məsələsi həm də ona görə narahatlıq doğururdu ki, Zülfi Sadıxovun rəhbərlik etdiyi 1-ci kompleks plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirsə də, sonradan inşa edilən 2-ci istehsalatın layihəsində yol verilmiş qüsurlar üzündən sex nəzərdə tutulduğundan az məhsul istehsal edirdi.

Zülfi Sadıxov elə həmin axşam Bakıdan Sumqayıta qayıdarkən – bütün yol boyu hər şeyi götür-qoy edir, vəziyyətdən çıxmağın, respublika rəhbərinin tapşırığını yerinə yetirməyin ən optimal variantları üzərində düşünürdü. Bir şey tam aydın idi: Akifin rəhbərlik etdiyi yeni istehsalatda işin tezliklə qaydaya salınacağına ümid etmək olmazdı. Deməli, əsas yük onun rəhbərlik etdiyi kompleksin üzərinə düşəcəkdi. Bunu baş direktorun narahatlıq dolu baxışlarından da sezmək çətin deyildi.

Zülfi Sadıxov səhəri gün sex və şöbə rəisləri ilə operativ müşavirə keçirir, istehsalatda işin səmərəliliyini, texnoloji prosesin ahəngdarlığının təmini və məhsulun artırılması ilə bağlı hər kəsə müvafiq göstərişlərini verir. Üzərinə düşən məsuliyyətin ciddiliyini yaxşı anlayan Zülfi Sadıxov həmin dövrdə zavoddan qısa müddətə belə ayrılmır, evə yalnız həftədə bir dəfə baş çəkirdi.

O, Ulu öndərin xüsusi tapşırığının hər ay şərəflə yerinə yetirilməsinə nail ola bilmişdi. Həmin dövrdə kollektiv nəzərdə tutulan aylıq 5500 tona qarşı plandan əlavə 1000 tondan artıq sulfanol istehsal edərək istehlakçı müəssisələrə göndərirdi. Buna görə də Moskva Azərbaycanın rəhbəri Heydər Əliyevi daha narahat etmirdi.

1982-ci ildə Zülfi Sadıxovun rəhbərlik etdiyi sulfanol kompleksində rekonstruksiya zamanı onun texniki səmərələşdirmə təklifləri əsasında müəssisənin istehsal gücü daha da artırılmış, bunun nəticəsində həmin il çox böyük iqtisadi mənfəət – o vaxtkı kursla 160 milyon ABŞ dollarından yuxarı təmiz gəlir əldə edilmişdi. Məhz buna görə Zülfi Sadıxov mühəndis həmkarları ilə birlikdə respublika Dövlət mükafatına layiq görülmüşdü.

Bu barədə söz düşəndə dostumun dedikləri olduğu kimi yadıma düşür: "Ulu öndərimizin xüsusi tapşırığını uğurla yerinə yetirməyi bacarmışamsa, deməli, xoşbəxt adamam. Bundan duyduğum böyük qürur ömür boyu bəsimdir".

Ömrünün yarım əsrə qədərini ölkənin kimya sənayesinin inkişafına həsr etmiş kimyaçı-mühəndis Zülfi Sadıxov 300-ə qədər texniki səmərələşdirmə təklifinin və bir sıra qiymətli ixtiraların müəllifidir. O, "SSRİ-nin əlaçı kimyaçısı" kimi "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş, "Azərbaycanın Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür.

Bu gün Ümummilli liderin layiqli davamçısı, Prezident İlham Əliyev Sumqayıtın inkişafına diqqətini əsirgəmir. Sumqayıt Texnologiyalar Parkı (STP) artıq neçə ildir ki, uğurla fəaliyyət göstərir. Bundan başqa, Sumqayıtda Kimya Sənaye Parkı yaradılıb, "SOCAR Polimer", "SOCAR Karbamid" və digər zavodlar ən müasir, modern üsulla işləyir, ixracyönümlü məhsullar buraxır. İnamla demək olar ki, Cənubi Qafqazın mühüm sənaye mərkəzi və ən gözəl ünvanlarından biri kimi şöhrəti gündən-günə artan Sumqayıt Heydər Əliyev ideyalarının təcəssümü olan müasir bir şəhərdir.

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Böyük siyasətin davamı: "Zəfərə gedən 20 il"




**Dünən Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyətə gəlişinin 20 illiyi və Zəfər Gününün 3-cü ildönümünə həsr olunmuş "Zəfərə gedən 20 il" mövzusunda tədbir keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2023-cü ilin ölkəmiz, eləcə də Naxçıvan Muxtar Respublikası üçün əlamətdar hadisələrlə dolu bir il kimi başa çatacağını bildirib. Diqqətə çatdırıb ki, "Heydər Əliyev İli"ndə Naxçıvan Muxtar Respublikasında yeni siyasi idarəetmə sistemi tətbiq olunur. Muxtar respublikanın hərtərəfli inkişafına hesablanmış dövlət proqramı təsdiqlənib və yeni layihələrin reallaşdırılması üçün böyük maliyyə vəsaiti ayrılıb. Eyni zamanda bu il suverenliyimizin tam bərpa olunmasının təntənəsini yaşayırıq. Bu uğurların təməlində dayanan İlham Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyini böyük qürur və sevinclə qeyd edirik.

Ümummilli liderimizin 2003-cü il prezident seçkiləri öncəsi xalqa müraciəti zamanı səsləndirdiyi "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" etimadını xatırladan səlahiyyətli nümayəndə vurğulayıb ki, dövlət başçımız ötən 20 ildə ata vəsiyyətini yerinə yetirməklə bu inamı doğrultdu. Dövlət başçımızın müstəsna xidmətləri nəticəsində Azərbaycanda yeni reallıqlar, yeni platformalar yaranıb: "Biz xoşbəxt insanlarıq ki, xalqımızın 200 illik mübarizəsini möhtəşəm Qələbə ilə başa çatdıran Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında həyat sürürük. Cənab İlham Əliyevin Azərbaycan xalqına bəxş etdiyi möhtəşəm Qarabağ zəfəri suveren Azərbaycana regionda öz sözünü deməyə böyük imkanlar verir. Noyabrın 8-də Xankəndidə keçiriləcək hərbi parad bir daha Azərbaycanın gücünü bütün dünyaya sübut edəcək".

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov qeyd edib ki, ölkəmizdə son 20 ilin uğurları, tarixə yazılan möhtəşəm qələbələr onu deməyə əsas verir ki, ölkə başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaqla Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında yeni idarəetmə formasının yaradılması, nümayəndəlik institutunun təsisi, struktur islahatlarının aparılması muxtar respublikanın inkişafında əhəmiyyətli rol oynayır.

Sonra Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış ediblər. Çıxışlarda dövlət başçımızın 20 illik hakimiyyəti dövründə Azərbaycanın keçdiyi misilsiz inkişaf yolunun müxtəlif məqamlarına nəzər salaraq bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir.

Sonda Naxçıvan televiziyasının hazırladığı "Zəfərə gedən 20 il" qısametrajlı filmi nümayiş etdirilib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Kiyevdə Heydər Əliyevə həsr olunan dəyirmi masa

**Taras Şevçenko adına Kiyev Milli Universitetində "Heydər Əliyevin 100 illiyi. Onun Azərbaycan-Ukrayna dostluq əlaqələrinin möhkəmlənməsində rolu" adlı dəyirmi masa keçirilib.**



Azərbaycanın Ukraynadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən dəyirmi masada Ali Radanın deputatları, xarici ölkələrin Ukraynadakı səfirləri, Taras Şevçenko adına Kiyev Milli Universitetinin rəhbərliyi, ictimai-siyasi xadimlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Taras Şevçenko adına Kiyev Milli Universitetinin rektoru Volodimir Buqrov bildirib ki, Azərbaycan ilə Ukrayna arasında müasir münasibətlərin əsası məhz Heydər Əliyevin prezidentliyi dövründə qoyulub. Heydər Əliyev ukraynalıların xatirələrində və Azərbaycan–Ukrayna münasibətlərinin tarixində həmişəlik mühüm şəxsiyyət olaraq qalıb.

Səfir Seymur Mərdəliyev, Ukrayna–Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux, Ukrayna Ali Radasının deputatı Oleksandr Merejko, 1997–2004-cü illərdə Ukraynanın Azərbaycanda səfiri Boris Aleksenko, Ukrayna Milli Elmlər Akademiyasının Dünya Tarixi İnstitutunun direktoru, tarix elmləri doktoru Andrey Kudryaçenko və digərləri çıxışlarında Ulu öndərin yorulmaz fəaliyyəti və müdrik liderliyi barədə geniş danışıblar.

***XQ***

# Rumıniyada da Ümummilli lider anıldı

**Azərbaycanın Rumıniyadakı səfirliyi tərəfindən Alba Yuliya şəhərinin "1 dekabr 1918" Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə  mərasim keçirilib.**



Tədbirdə çıxış edən ölkəmizin Rumıniyadakı səfiri Hüseyn Nəcəfov Ümummilli liderin bir dövlət xadimi və dahi şəxsiyyət kimi müasir Azərbaycanın qurulmasında əvəzsiz xidmətlərindən danışıb, onun həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxsiyyət olduğunu deyib.

Eyni zamanda, Azərbaycan–Rumıniya əlaqələrindən söz açan səfir 30 ildən artıqdır ki, diplomatik, siyasi və iqtisadi əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini, ölkələrarası strateji tərəfdaşlığın dərinləşdiyini və strateji əhəmiyyət kəsb edən regional layihələrin həyata keçirildiyini qeyd edib.

Sonda Ümummilli liderin həyat və fəaliyyətini əks etdirən videoçarxlar nümayiş etdirilib, fotosərgi təşkil olunub, tədbir iştirakçılarına nəşrlər təqdim edilib və ziyafət verilib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 384** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1429; 2017, № 4, maddə 674; 2018, № 4, maddə 812; 2019, № 6, maddə 1158; 2020, № 11, maddə 1411) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndin üçüncü cümləsində "1 aydan" sözləri "30 (otuz) gündən (arxeoloji ekspedisiyalarda 60 (altmış) gündən)" sözləri ilə əvəz edilsin və həmin cümlədən "hər ay" sözləri çıxarılsın;

1.2. 2.3-cü bəndə "30 (otuz) gün" sözlərindən sonra "(arxeoloji ekspedisiyalarda ən çox 60 (altmış) gün)" sözləri əlavə edilsin;

1.3. 2.9.3-cü yarımbəndə "3" rəqəmindən sonra "(arxeoloji ekspedisiyalarda 10)" sözləri əlavə edilsin;

1.4. həmin Qaydalara əlavə – "Azərbaycan Respublikasında elmi ekspedisiyalar və çöl işlərinin aparılması üzrə xərc normaları" üzrə:

1.4.1. 2-ci hissə üzrə:

1. birinci abzasa "Görüləcək (aparılacaq) işlərin adı" sütununa "3" rəqəmindən sonra "(arxeoloji ekspedisiyalarda 10)" sözləri əlavə edilsin;

2. dördüncü abzasda "Məbləğ (manatla)" sütununda "8" rəqəmi "25" rəqəmləri ilə əvəz edilsin;

1.4.2. 3-cü hissənin "Məbləğ (manatla)" sütunu üzrə:

1. ikinci abzasda "12" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

2. üçüncü abzasda "10" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin;

3. beşinci abzasda "5" rəqəmi "25" rəqəmləri ilə əvəz edilsin.

2. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 385** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**"Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı"nın təsdiq edilməsi haqqında**

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 386** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**"Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli 1139 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 387** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**"İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 388** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**"Azərbaycan Respublikasının mülki donanmasının gəmilərinin şəxsi heyətinin hərbi-dəniz hazırlığı Qaydaları"nın təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 13 dekabr tarixli 328 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının mülki donanmasının gəmilərinin şəxsi heyətinin hərbi-dəniz hazırlığı Qaydaları" təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 390** **Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

**"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Səsyazma Evinin tabeliyində olan Niyazi adına Dövlət Simfonik Orkestrinin, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin və Cahangir Cahangirov adına Xorun Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Səsyazma Evində fəaliyyət göstərən Niyazi adına Dövlət Simfonik Orkestri ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki Heydər Əliyev Sarayına, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri və Cahangir Cahangirov adına Xor ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki Beynəlxalq Muğam Mərkəzinə verilsin.

2. Bu Qərarın 1-ci hissəsinə əsasən həmin kollektivlərin cari ildə maliyyələşdirilməsi Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsindən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə ayrılan maliyyə yardımının strukturunda həmin musiqi kollektivlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuş hədd çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında həyata keçirilsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üçün dövlət büdcəsi layihəsinin tərtibi zamanı aparılan islahatları nəzərə alsınlar və bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 391** **Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 502; 2022, № 6, maddə 674; 2023, № 3, maddə 435) ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"na əlavə aşağıdakı redaksiyada verilsin:

"Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) ümumi təhsil pilləsində tədris olunan fənlərə uyğunluğu

| Sıra №-si | İxtisasların (proqramların) adı | İxtisasın uyğun gəldiyi ümumtəhsil fənni |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Filologiya (dil və ədəbiyyat göstərilməklə)* | dil və ədəbiyyat |
| 2. | Tarix* | tarix |
| 3. | Coğrafiya* | coğrafiya |
| 4. | Riyaziyyat* | riyaziyyat |
| **1** | **2** | **3** |
| 5. | Kimya mühəndisliyi | kimya |
| 6. | Biologiya* | biologiya |
| 7. | Tətbiqi biologiya** | biologiya |
| 8. | Kimya* | kimya |
| 9. | Tətbiqi kimya** | kimya |
| 10. | Mexanika | fizika |
| 11. | Fizika* | fizika |
| 12. | Tətbiqi fizika** | fizika |
| 13. | Tətbiqi riyaziyyat** | informatika |
| 14. | İnformatika** | informatika |
| 15. | Kompüter elmləri | informatika |
| 16. | Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi** | informatika |
| 17. | Kompüter mühəndisliyi | informatika |
| 18. | İnformasiya təhlükəsizliyi | informatika |
| 19. | Texniki sistemlərdə idarəetmə və informatika** | informatika |
| 20. | Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı** | informatika |
| 21. | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** | informatika |
| 22. | Hesablama maşınları kompleksləri, sistemləri və şəbəkələri** | informatika |
| 23. | İnformasiya emalının və idarəetmənin avtomatlaşdırılmış sistemləri** | informatika |
| 24. | Avtomatlaşdırılmış layihə sistemləri** | informatika |
| 25. | Hesablama texnikasının və avtomatik sistemlərin proqram təminatı** | informatika |
| 26. | İnformasiya texnologiyaları | informatika |
| 27. | Sistem mühəndisliyi** | informatika |
| 28. | Bədən tərbiyəsi və idmanda reabilitasiya | fiziki tərbiyə |
| **1** | **2** | **3** |
| 29. | Bədən tərbiyəsi və idman** | fiziki tərbiyə |
| 30. | Məşqçi (idman növü üzrə)** | fiziki tərbiyə |
| 31. | İnstrumental ifaçılıq** | musiqi |
| 32. | İnstrumental ifaçılıq (sahələr üzrə) | musiqi |
| 33. | Solo oxuma** | musiqi |
| 34. | Dirijorluq** | musiqi |
| 35. | Dirijorluq (sahələr üzrə) | musiqi |
| 36. | Bəstəkarlıq | musiqi |
| 37. | Musiqişünaslıq | musiqi |
| 38. | Estrada sənəti** | musiqi |
| 39. | Xalq çalğı alətləri ifaçılığı** | musiqi |
| 40. | Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri** | musiqi |
| 41. | Vokal sənəti (sahələr üzrə) | musiqi |
| 42. | Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) | musiqi |
| 43. | Xor dirijoru** | musiqi |
| 44. | **İnstrumental ifaçılığı, orkestr alətləri,** Azərbaycan xalq çalğı alətləri** | musiqi |
| 45. | Dekorativ sənət** | təsviri incəsənət |
| 46. | Dekorativ-tətbiqi sənət (sahələr üzrə) | təsviri incəsənət |
| 47. | Dekorativ-tətbiqi incəsənət və xalq sənəti (sahələr üzrə)** | təsviri incəsənət |
| 48. | Rəngkarlıq | təsviri incəsənət |
| 49. | Qrafika | təsviri incəsənət |
| 50. | Monumental-dekorativ sənət** | təsviri incəsənət |
| 51. | Kompozisiya** | təsviri incəsənət |
| 52. | Rəssamlıq** | təsviri incəsənət |
| 53. | Dizayn** | təsviri incəsənət |
| 54. | Dizayn (sahələr üzrə) | təsviri incəsənət |
| 55. | Dizayner-rəssam** | təsviri incəsənət |
| 56. | Heykəltəraşlıq | təsviri incəsənət |
| 57. | Xalçaçı-rəssam** | təsviri incəsənət |
| 58. | Modelyer-rəssam** | təsviri incəsənət |
| 59. | Memarlıq | təsviri incəsənət |

* 2010/2011-ci tədris ilinədək bu ixtisaslar üzrə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunanlar pedaqoji təhsilə malik olan şəxslər hesab edilirlər.

** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı" qüvvəyə minənədək mütəxəssis hazırlığı aparılmış ixtisaslar (proqramlar) nəzərdə tutulur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 402** **Bakı şəhəri, 3 noyabr 2023-cü il**

**"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 sentyabr tarixli 122 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə"nin 15-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 sentyabr tarixli 122 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 740; 2006, № 7, maddə 640, № 9, maddə 815; 2011, № 1, maddə 61; 2012, № 5, maddə 468; 2014, № 9, maddə 1129; 2015, № 12, maddə 1589; 2018, № 7 (II kitab), maddə 1643; 2019, № 6, maddə 1154; 2020, № 9, maddə 1218) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "9" rəqəmi "11" rəqəmləri ilə əvəz edilsin.

2. 2-ci hissənin "Kollegiyanın üzvləri:" bölməsinə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hüquqi təminat idarəsinin rəisi" sözlərindən sonra "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Hərtərəfli inkişaf və tərəqqi iqtisadi yüksəlişdən qaynaqlanır

## *Gələn il bu məqsədlərə 5,6 milyard manat xərclənəcək*



**Hesablama Palatasının məlumatına əsasən, Azərbaycanda gələn il dövlət büdcəsindən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasına 5,6 milyard manat ayrılması nəzərdə tutulur.**

"2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, həmin vəsaitin 4 milyard manatının və yaxud 72,6 faizinin işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına, 1,1 milyard manatının və yaxud 20 faizinin investisiya xərclərinə, 409 milyon manatının və yaxud 7,4 faizinin isə cari xərclərə yönəldiləcəyi nəzərdə tutulur.

Azərbaycan dövləti bu gün 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsini yaşayır. Bu dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulur. Elə bu məqsədlə də təsdiq edilən "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsaslanaraq hazırlanan "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşması ilə ölkədə iqtisadi artımın tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacağı, xüsusilə prioritet sahələrdə artım templərinin sürətlənəcəyi, iqtisadiyyatın və məşğulluğun dayanıqlığının daha da güclənəcəyi proqnozlaşdırılır. Bu gözləntinin gerçəkləşəcəyi əminliyi, həm də adıçəkilən strategiyanın icrasına yönəldilən vəsaitin ildən-ilə artırılmasından irəli gəlir. Keçən il bu məqsədlə 2,4 milyard manat xərclənməsi də deməyə əsas verir ki, qarşıya qoyulan vəzifə uğurla həyata keçirilir.

Xatırladaq ki, Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda 2022–2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modelinin ölkəmizdə çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyənləşdirəcəyi vurğulanır və bu mərhələdə yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə hər bir vətəndaşın sabit təminatlı həyat səviyyəsinə nail olmaq qarşıya başlıca vəzifə kimi qoyulur. Həmçinin bu zaman başlıca vektor artımının səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanılacağı bildirilir.

Sənəddə strateji dövrdə yeni artım modelinin özəl təşəbbüslərə, keyfiyyətli və sağlam insan kapitalına söykənəcəyi, dayanıqlı, inklüziv inkişafı gerçəkləşdirən özəl təşəbbüslər və rəqabətqabiliyyətli açıq iqtisadiyyat modeli müasirləşmə strategiyasının əsas qüvvəsi olacağı diqqətə çatdırılır.

Strategiyada, eyni zamanda, bütün bunlarla yanaşı, rəqabətliliyin ölkədə adambaşına düşən milli gəlirin uzunmüddətli dövrdə sabit artmasına və insanların həyat standartının yüksəldilməsinə imkan yaradacağı, iqtisadiyyatın rəqabətliliyi əsas təməl olan məhsuldarlığın dərinləşəcəyi əminliyi ifadə edilir. Bu strateji dövrdə özəl və məhsuldar investisiyalar, keyfiyyətli institutlar, müasir bilik və bacarıqlara malik insan kapitalı, sağlam cəmiyyət, innovasiya və yeni texnologiyalar, həmçinin makroiqtisadi sabitlik sayəsində yüksək məhsuldarlığa nail olunacağı inamı xatırladılır.

Sosial-iqtisadi inkişaf Strategiyasının icrasına başlandığı vaxtdan özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yeni səmərəli stimullar hesabına sürətlənib, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığı güclənib, qeyri-xammal ixracı genişlənib. Qeyri-neft sektorunun, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini reallaşdıran, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli aqrar istehsalda yüksək göstəricilər əldə edilib. Bu sahəyə dövlət dəstəyi, investisiyalar və innovasiyaların cəlbi gücləndirilib. Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilib.

Bütün bu sadalanan uğurlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, cari ilin birinci yarısında ölkədə 60 milyard manatlıq, o cümlədən qeyri-neft sektorunda 36 milyard manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 0,5 faiz, qeyri-neft sektoru üzrə isə 3,1 faiz artıb. Bu ilin 9 ayında isə ÜDM istehsalı əvvəlki ilin müvafiq dövrünə nisbətən 98,5 faiz artaraq 34 milyard 647 milyon manata çatıb. ÜDM istehsalının 41,6 faizi sənaye, 9,5 faizi ticarət, 6,4 faizi kənd təsərrüfatı, 6 faizi nəqliyyat, 5 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi, 1,7 faizi informasiya–rabitə sahələrinin, 18 faizi isə digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 8 min 949 manata yüksəlib.

Cari ilin ilk yarısında orta illik inflyasiya göstəricisi isə 12,7 faiz səviyyəsində qeydə alınıb. Hesabat dövründə ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksində ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,1 faiz, qeyri-ərzaq məhsulları üzrə 11,4 faiz artım müşahidə edilib. Yeri gəlmişkən, 2023-cü ilin yanvar-avqust aylarında orta illik inflyasiya 11,7 faiz, illik inflyasiya isə 8 faiz olub.

Onu da qeyd edək ki, son bir il ərzində əldə edilən uğurlarda əvvəlki dövrün iqtisadiyyatında yaradılan makroiqtisadi sabitlik və dayanıqlıq baza rolunu oynayıb. Bu məsələyə milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlığın artması, iqtisadiyyatın sürətlə şaxələnməsi və daxili istehsalın qlobal dəyər zəncirinə səmərəli inteqrasiyası da müsbət təsir göstərib.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ümumi dövlət borcunun azaldılması da prioritet vəzifə kimi qarşıya qoyulub. Bununla bağlı sənəddə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi hədəflənib.

Rəsmi proqnozlarda "2024-2027-ci illərdə xarici dövlət borcunun 8 milyard 898,7 milyon manat (5 milyard 234,5 milyon dollar) və ya ÜDM-in 7,5 faizi həcmində, daxili dövlət borcunun isə 2024-cü ilin sonuna 18 milyard 779,4 milyon manat və ya ÜDM-in 15,9 faizi həcmində olacağı gözlənilir.

Gələn ilin sonuna isə Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 27 milyard 678 milyon manat səviyyəsində olacağı proqnozlaşdırılır və 118 milyard 383,3 milyon manat məbləğində gözlənilən ÜDM-in 23,4 faizini təşkil edəcək.

Qeyd edək ki, cari ilin sonuna Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 26 milyard 803,6 milyon manat səviyyəsində olacağı gözlənilir. Bu, 119 milyard 650 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 22,4 faizini təşkil edəcək. Həmin dövrdə xarici dövlət borcu 10 milyard 848,2 milyon manat (6 milyard 381,3 milyon dollar) və ya ÜDM-in 9,1 faizi həcmində, daxili dövlət borcu isə 15 milyard 955,4 milyon manat və ya ÜDM-in 13,3 faizi həcmində olacağı proqnozlaşdırılır.

Beləliklə, ümumilikdə yeni çağırışlarla əlaqədar yaranan əlavə maliyyə tələbatının təmin edilməsi üçün icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinin hədəflənən yuxarı həddinin 2024-cü ilin sonuna 24 faiz müəyyənləşdirilməsi, ortamüddətli dövrün sonuna (2027-ci il) 17,5 faiz, dövlət borcunun ÜDM-ə nisbət göstəricisi üzrə isə 2027-ci ilin sonuna hədəflənən yuxarı həddinin 30 faiz səviyyəsində olması təklif edilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# "Şahdəniz" layihəsi ölkəmizə töhfəsini artırır

## *Bu ilin 9 ayında yataqdan 20 milyard kubmetr qaz və 3 milyon ton kondensat çıxarılıb*

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən dünya səviyyəli "Şahdəniz" yatağı uzun illərdir ki, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə, ölkəmizin potensial qaz tədarükçüsü kimi rolunun artmasına xidmət edir. XXI əsrin ən böyük eneji marşrutu sayılan Cənub Qaz Dəhlizi ilə Avropaya göndərilən qaz həcmlərinin artırılması isə "Şahdəniz" layihəsi səhmdarlarının səmərəli fəaliyyətindən asılıdır.**

"BP-Azərbaycan" şirkətinin məlumatına görə, 2023-cü ilin 9 ayında "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə, təxminən, 1 milyard 738 milyon dollar, əsaslı məsrəflərinə isə 653 milyon dollar xərclənib. Həmin vəsaitin isə böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf edilib.

Cari ilin ötən dövründə təbii qazın "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan



(GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

Məlum olduğu kimi, layihə səhmdarlarının yekdil qərarına əsasən, "Şahdəniz" yatağının bir neçə mərhələdə işlənməsi qərara alınıb. Xatırladaq ki, birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, ilk qaz isə 2006-cı ilin sonlarında hasil edilib. Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Həmin qurğuların gündəlik hasilat gücü təxminən 72,1 milyon (ildə 26,3 milyard kubmetrdən artıq) kubmetr təşkil edir. Cari ilin doqquz ayında "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından, ümumilikdə, təqribən 20 milyard kubmetr qaz və 3 milyon tondan artıq kondensat çıxarılıb. Yeri gəlmişkən, hasilata başlanıldığı və Cənubi Qafqaz boru kəmərinin istismara verilməsindən 16 il yarım sonra "Şahdəniz" layihəsi üzrə əlamətdar hadisə, uğurlu nəticə qeydə alınıb. Belə ki, layihənin səhmdarları avqust ayının 26-da "Şahdəniz" yatağından 200 milyard kubmetr qaz əldə olunmasını təntənəli şəkildə elan ediblər.

Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Hazırda "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur. Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi daxildir.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə isə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını işlənməyə daxil ediblər.

2023-cü ilin üçüncü rübündə sözügedən layihə çərçivəsində aparılan işlər yatağın şərq-şimal cinahından dördüncü rübə planlaşdırılan hasilatın başlanması qrafikinə uyğun davam etdirilib. Həmin cinahdan hasilatın başlanması üçün quraşdırma və sınaq işləri həm sualtı, həm də "Şahdəniz Bravo" platformasının üst modullarında aparılıb. Hesabat dövründə layihə çərçivəsində şərq-şimal cinahının istismar sınaqlarına gəmidən dəstək işləri uğurla tamamlanıb. Hazırda isə bütün sistemin təhvil verilməsi üçün platformada istismar sınaqları həyata keçirilir.

Bu ilin üçüncü rübündə "Şahdəniz Alfa" platformasının qazma qurğusunda aparılan profilaktik işlər səbəbindən yeni quyu qazılmayıb. Bununla belə, "İstiqlal" qazma qurğusu vasitəsilə SDF03z quyusunun tamamlama işləri yekunlaşdırılıb və SDF05 quyusunda analoji tədbirlərə başlanılıb. Ümumilikdə isə, ötən müddətdə "Şahdəniz-2" layihəsi çərçivəsində 21 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 4-ü qərb, 4-ü şərq, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb.

Hazırda layihənin səhmdarları tərəfindən "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş çərçivəsində yeni bir kəşfiyyat quyusunda qazma işləri aparılır. Qeyd edək ki, SDX-8 adlandırılan həmin quyunun qazılmasına 2023-cü il yanvarın 20-də Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə başlanılıb. "Şahdəniz" yatağının şərq cinahında yerləşən quyu yatağın hazırda istismarda olan məhsuldar laylarının altındakı daha dərin horizontları qiymətləndirmək məqsədilə qazılır.

"Şahdəniz" yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetr təşkil edir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir.

Qaz terminaldan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) sistemi də daxil olmaqla əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) və terminalın qaz emalı obyektlərini SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. Cari ilin üç rübü ərzində terminaldan, həmçinin gündəlik orta hesabla, təxminən, 71 milyon kubmetr "Şahdəniz" qazı göndərilib.

Məlum olduğu kimi, Səngəçal terminalındakı mövcud qurğular qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə ötürür. Ötən il Cənubi Qafqaz boru kəmərinin əməliyyat tədbirlərinə təqribən 49 milyon dollar, əsaslı məsrəflərinə isə 4,5 milyon dollar xərclənib.

Qeyd edək ki, 2006-cı ilin sonlarında istismara verilimiş Cənubi Qafqaz boru kəməri "Şahdəniz" qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb. Bu ilin 9 ayı ərzində Cənubi Qafqaz boru kəmərinin ixrac üçün gündəlik orta ötürücülük gücü 60,5 milyon kubmetr təşkil edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yeraltı qaz anbarları qışa hazırdır

**Cari ilin ötən dövründə payız-qış mövsümünə hazırlıq çərçivəsində Azərbaycanın yeraltı anbarlarına 2 milyard kubmetrədək qaz vurulub.**



Bu barədə SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin rejimlərə nəzarət və mərkəzi dispetçer şöbəsinin rəisi Rasim Əhmədov media nümayəndələri ilə keçirilən görüş zamanı bildirib. Onun dediyinə görə, bu da payız-qış mövsümündə temperaturun kəskin dəyişməsi zamanı tələbata uyğun olaraq istehlakçıları "mavi yanacaq"la fasiləsiz təmin etməyə imkan verəcək.

Xatırladaq ki, Azərbaycanda fəaliyyət göstərən Qaradağ və Qalmaz yeraltı qaz anbarlarının tutumu 3,34 milyard kubmetr təşkil edir. Bunun da 1,89 milyard kubmetri Qaradağ, 1,45 milyard kubmetri isə Qalmaz anbarlarının payına düşür. Payız-qış mövsümündə istehlakçıların fasiləsiz qaz təminatı məqsədilə ötən il yeraltı qaz anbarlarında 3,1 milyard kubmetrdən çox qaz ehtiyatı yaradılıb.

# Heyvandarlıqda sığortaya maraq

**Kənd təsərrüfatının heyvandarlıq sahəsi aqrar sığorta ilə getdikcə daha çox əhatə olunur. Bu ilin ötən dövründə heyvandarlıqla bağlı 800 min manatadək sığorta ödənişinin həyata keçirilməsi də bunu deməyə əsas verir.**

Aqrar Sığorta Fondu sədrinin müavini Firdovsi Ağaşirinovun bildirdiyinə görə, 2023-cü ilin əvvəlindən heyvandarlıqla bağlı təqribən 2 milyon 500 min manata yaxın sığorta haqqı toplanılıb. Ölkəmizdə aqrar sığorta sisteminin özünü tam doğrulduğunu vurğulayan sədr müavininin fikrincə, hazırda fermerlər bu sahədə nəzərdə tutulmuş xidmətlərdən lazımınca istifadə edə bilirlər.

"Fermerlər bu sahəyə etimad edir və öz risklərini təminat altına alırlar. 2021-ci ildə 4 min fermer bu xidmətdən istifadə edirdisə, artıq onların sayı



10 mindən çoxdur",–deyə F.Ağaşirinov əlavə edib.

***XQ***



# "Merkuri 1" gəmi-bərəsi əsaslı təmir olunub

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsus "Merkuri 1" gəmi-bərəsi əsaslı təmir edilib.***

ASCO-dan verilən məlumatda daha sonra deyilir ki, "Merkuri 1"in "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan təmir işləri qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib.

Gəmi-bərənin baş mühərrikləri əsaslı təmir olunub, 3 köməkçi mühərrikdən ikisi yenisi ilə əvəzlənib. Gəmi üzrə gövdə-qaynaq, boru, elektrik-quraşdırma və avtomatika işləri yerinə yetirilib. Həmçinin gəmi mexanizimlərinin (nasosların, separator, kompressor) təmiri aparılıb.

Dəniz layneri rabitə və elektroradionaviqasiya sahəsinə aid müasir, yeni tip bir ədəd "Inmarsat-C" peyk rabitə terminalı, iki ədəd mobil ultraqısa dalğalı (UQD) radiostansiya, bir ədəd dərinlik ölçən exolot, iki ədəd stasionar UQD radiostansiya üçün antenna, bir ədəd elektron xəritə (ECDİS), radiolokasiya stansiyası (RADAR) və girokompas quraşdırılıb.

Eyni zamanda "Merkuri 1" gəmisinin sualtı və suüstü hissəsi, baş göyərtəsi, maşın şöbəsi və üst qurumu təmizlənərək rənglənib, heyətin yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir olunub. Dəniz-sınaq yoxlamasından uğurla çıxan gəmi-bərə yenidən istismara qaytarılıb.

***XQ***

# 9 ayda İtaliyaya 8 milyon tona yaxın neft satılıb

**Dövlət Gömrük Komitəsindən bildirilib ki, Azərbaycan bu ilin yanvar–sentyabr aylarında İtaliyaya 4 milyard 986 milyon dollar dəyərində 7 milyon 985 min ton neft ixrac edib.**



Bu, ötən ilin müvafiq dövrünə nisbətdə 5,6 faiz çoxdur. Belə ki, ötən ilin 9 ayında Azərbaycan İtaliyaya 7,5 milyon ton neft satıb.

Hesabat dövründə İtaliya Azərbaycanın ən böyük neft idxalçısı kimi qeydə alınıb.

***XQ***

6 Noyabr Metropoliten İşçiləri Günüdür

# Yeraltı səltənətin yerüstü bayramı

**Bakı metrosunun müstəqillik illərindəki fəaliyyəti iqtisadi inkişafın həm Azərbaycan modelini, həm də bazar iqtisadiyyatının başlıca tələblərinin sosial əsaslı layihələrlə uzlaşdırılmasını tələb edirdi. 2014-cü il fevralın 27-də dövlət başçısının sərəncamı ilə Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus "Bakı Metropoliteni" QSC də bu zərurətdən ilə yarandı. Bundan sonrakı dövr metropolitenin tarixinə hərtərəfli inkişafın yüksək sürəti ilə daxil oldu.**



Metro infrastrukturunun əsas hissəsi yer altında, tunellərdə yerləşdiyi və hidrogeoloji şəraitin, qrunt sularının dağıdıcı təsiri ilə üzləşdiyi üçün, ilk növbədə, mühitin kimyəvi, həmçinin qatarların dartı cərəyanından yaranan elektrik korroziyasının tunellərə mənfi təsiri gündəlik iş rejimi şəraitində aradan qaldırılır, axıntılar ləğv edilir, yeraltı sular tunellərdən kənarlaşdırılır, orada təbii və məcburi hava axını yaradılır. Xüsusən korroziya əleyhinə mübarizə prosesində metropolitenin mütəxəssisləri tərəfindən dünya təcrübəsinə əsaslanan müasir boyalardan istifadə edilir.

Bakı Metropolitenində formalaşan qrunt sularından səmərəli istifadə ilə bağlı təşəbbüs isə paytaxt üçün ən mühüm layihələrdəndir. "Nizami" stansiyası yaxınlığında xüsusi qurğularla yer üzərinə çıxarılan su paytaxtda texniki məqsədlər, ən əsası, yaşıllıqların suvarılmasında səmərəli istifadə olunur.

Enerji təminatının etibarlığı, siqnal və rabitə sistemlərinin dəqiqliyi, stansiya və tunellərin səmərəli havalandırılması olmadan, sərnişin texnikası və avtomatikası (eskalatorlar, liftlər, gediş kartı aparatları, avtomat nəzarət-buraxılış məntəqələri, yanğın-mühafizə, videomüşahidə sistemləri və s.) lazımi səviyyədə işləməsə, hərəkətin təşkilindən, yüksək xidmət mədəniyyətindən, sərnişinlərin rahatlığı və təhlükəsizliyindən söz gedə bilməz. Buna görə də metronun enerji təminatı bazasının möhkəmləndirilməsi, fövqəladə hallarda yeraltı yolların alternativ enerji mənbələrindən qidalanması sahəsində əsaslı işlər görülüb. Depo ərazisində 2 yarımstansiya yeni bina ilə təmin olunmaqla müasir standartlar səviyyəsində qurulub. Eyni işlər "İçərişəhər", "Sahil", "Gənclik", "Elmlər Akademiyası" stansiyalarının elektrik təminatı bazalarında, digər dartı və alçaldıcı elektrik yarımstansiyalarında da yerinə yetirilib.

Gələcəkdə metropolitendə hərəkətin təşkili və idarə olunmasında müasir "CBTC" və "SCADA" proqram-alət kompleksinin tətbiqinə üstünlük veriləcək. Bu sistemlərin, eləcə də rəqəmsal mobil rabitənin qlobal standartlı texnologiyalarına (GSM) əsaslanan TETRA sisteminin tətbiqi qatarların hərəkətinin idarəsini və stansiyaların işinin təşkilini avtomatlaşdıracaq. Hazırda proqram çərçivəsində yeni "Bənövşəyi xətt"də və "Nərimanov" elektrik deposunda "ox sayğacı" bazasında sistemin tətbiqi üzrə əsaslı addımlar atılıb və gələcəkdə bu işlər mövcud xətlərdə də davam etdiriləcək.

Yarım əsrdən artıq bir istismar dövrü yaşayan Bakı Metropoliteninin havalandırılması, stansiyalarda iqlim şəraitinin normallaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi son illərdə daha yüksək vüsət alıb. Sistemin özündə təkmilləşdirici tədbirlər görülüb, iş rejimi daha da optimallaşıb, istismar müddətini başa vurduğuna görə faydalı iş əmsalını itirmiş qurğular yenilənib. Elə son iki ildə 20-yə yaxın belə ventilyator yenisi ilə əvəzlənib.

Stansiyalarda sərnişin axınının təşkilində əhəmiyyətli rolu olan eskalatorların, demək olar ki, 80 faizindən çoxu yenilənib. Sovet dövrünün eskalatorları Almaniyanın "Thyssen Krupp" şirkətinin müasir nümunələri ilə əvəz edilib.

Çoxminlik metropoliten kollektivi həmişə Bakıda normal həyat şəraitinin təmin olunmasında üzərinə düşən məsuliyyət yükünün ağırlığını dərk edir və şəhər sərnişindaşımalarında özünəməxsus üstünlükləri qoruyub saxlayaraq daha da artıracağına, sərnişinlərinə xidmətin səviyyəsini daha da yüksəldilməsinə, onların təhlükəsizliyinin, rahatlığının təmin olunmasına inamla zəmanət verir.

Bu il ərzində 27-ci, ikinci yerüstü və "Bənövşəyi xətt"in 4-cü stansiyası istismara verilib. "Xocəsən" elektrik deposunun açılışı olub. Yeri gəlmişkən, əgər ilk deponun işə salınmasında 56 il əvvəl keçmiş SSRİ-nin çoxsaylı mütəxəssisləri rol oynamışdılarsa, beynəlxalq standartlara uyğun qurulan indiki "Bənövşəyi xətt" deposu Azərbaycan mütəxəssislərinin müstəqillik illərində əldə etdikləri təcrübənin nəticəsidir.

Bütün bunlarla bərabər, ötən il dekabrın 30-dan başlayaraq 4 qatar tərkibini formalaşdıran 20 vaqon da sərnişinlərin ixtiyarına verilib. Eyni zamanda, metropolitendə xidmət mədəniyyətinin yüksəldilməsini və sərnişin məmnunluğunu şərtləndirən ən zəruri amil Azərbaycan Prezidentinin xüsusi tapşırığı ilə 2015-ci ildən alınan yeni nəsil qatarları olub. Belə qatarların sayı 23-ə, vaqonların sayı isə 115-ə çatdırılıb.

Hazırda istismarda 11 kilometrdən çox depo yolları var və onun 80 faizə yaxın hissəsi artıq beton şpallar üzərində qurulub. Bu isə ölkə xaricindən gətirilən ağac şpallarından asılılığı daha da azaldıb. Belə bir şəraitdə mövcud şpalların qulluğu daha da asanlaşıb, səmərəsi isə çoxalıb.

"Bakı Metropoliteni" QSC-nin öz layihəsi əsasında daha bir yenilik də artıq özünü doğruldub. Belə ki, depoda 7 yoldəyişdirici qurğu dəmir-beton çevirici tirlər üzərində yerləşdirilib. Qatarların təmir edilmiş baxış-qulluq sahələrinin qarşısında olan daha 5 qurğu da dəmir-beton monolit üzərində olmaqla yenidən qurulub.

Cari il metropoliten üçün hər hansısa məhdudiyyətin olmadığı şərait sayıla, yəni postpandemiya dövrü hesab oluna bilər. Çünki pandemiya metropolitenə çox böyük mənfi təsir göstərib. Əlbəttə, zaman baxımından mümkün texniki yeniliklər reallaşdırılıb. Hətta "Elmlər Akademiyası" stansiyasında, depoda bir neçə yol yenidən qurulub, ölkəmizdə istehsal olunan dəmir-beton bloku tətbiq edilib. Bu xüsusda artıq "Cəfər Cabbarlı", "Xətai" stansiyaları da daxil olmaqla, yollar müasirləşdirilib. Hətta əsaslı təmiri davam edən "Cəfər Cabbarlı" stansiyasından "Xətai" stansiyasına qədər olan yolun 500 metrlik hissəsində də dəmir-beton blok tətbiq edilib. Lakin əsas məsələ sərnişindaşıma və onun təşkilidir. 2019-cu ildən sonra ilk dəfə sentyabr ayında məhz bu il payız-qış qrafiki tətbiq olunub.

***V.BAYRAMOV***
***XQ***

# Döyüşçü jurnalistə ehtiram



**Azərbaycan Televiziyası və Radiosu Günü ərəfəsində Azərbaycan Mətbuat Şurasında qurumun Ahıl Jurnalistlər Məclisinin təşkilatçılığı ilə tanınmış telejurnalist Adil İrşadoğlunun anadan olmasının 70 illiyini həmkarları və dostları sevgi-sayğı ilə qeyd etdilər.**

Azərbaycan Mətbuat Şurasının sədri Rəşd Məcid I Qarabağ müharibəsi dövründə hərbi verilişlər redaksiyasına rəhbərlik etmiş, odlu-alovlu cəbhələrdən keçmiş, zəngin savaş xronikası yaratmış veteran jurnalistə rəhbərlik etdiyi qurumun yubiley diplomunu təqdim edərək, ona media ictimaiyyətinin səmimi təbrikini və xoş arzularını çatdırdı. Şura sədri Adil İrşadoğlunun yarım əsri əhatə edən jurnalist fəaliyyətində Qarabağ münaqişəsinin aparıcı yer tutduğunu söylədi. O bildirdi ki, Qarabağın faciəli yaşantılarının cəmiyyətə çatdırılmasında döyüşçü jurnalistin çoxsaylı televiziya verilişləri jurnalistikanın vətənpərvərlik missiyasına layiqli töhfə olub. Adil müəllimin müharibə müddətində cəbhə xəttindən hazırladığı çoxsaylı reportajların xalqımızın qəhrəmanlıq ruhunun yüksəldilməsində böyük əhəmiyyəti var.

Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu jurnalistikanı sevən insanların Adil İrşadoğlu işığına toplaşmasını müstəsna qədirbilənlik nümunəsi kimi qiymətləndirdi. O, yubilyarı qələm sahibini peşənin nüfuzunu qoruyan, təəssübünü çəkən həmkar kimi səciyyələndirən xüsusiyyətlərdən söz açaraq bildirdi ki, A.İrşadoğlu Birinci Qarabağ müharibəsinin canlı xronikasını yaratması ilə adını tarixə yazdırıb.

AMŞ sədrinin müavini Səadət Məmmədova, İdarə Heyətinin üzvü Azər Həsrət, poliqrafçı alim Şəddat Cəfərov, veteran qələm sahibi, naşir-publisist Hacı Mehman Fərzullayev, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının Prezidenti Eldar İsmayılov, "Xalq qəzeti"nin əməkdaşları Zərifə Bəşirqızı və İlqar Həsənov, filologiya üzrə fəlsəfə doktoru Şəfəq Nasir, MŞ-nin Ahıl Jurnalistlər Məclisinin sədr müavini, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, professor Habil Qurbanov, Milli Qəhrəman Asif Məhərrəmovun (Fred Asif) qardaşı, müharibə veteranı Ədalət Məhərrəmov, yubilyarın tələbə yoldaşı Qəşəngi Əliyeva, Ağdamın tanınmış ictimai xadimi, həkim Tarıyel Eyvazov, operatorlar, vaxtilə yubilyarla birlikdə cəbhə xəttində çəkilişlərdə olmuş Tahir Qarayev və Fikrət Hüseynov, Birinci Qarabağ müharibəsinin veteranı, şəhid atası Hacı Əkbər Rüstəmov, şair-publisist, ictimai xadim Zakir Ağdamlı, veteran jurnalist Mübariz Ağaxanoğlu, jurnalist Ağaşirin Məmmədov, A.İrşadoğlunun uşaqlıq dostları Çingiz Tağıyev və İlham Qurbanov, veteran jurnalist Rafik Kərimov, tanınmış teleziviya rejissoru Lətif Abdullayev və başqaları çıxışlarında Adil İrşadoğlunu parlaq düşüncə sahibi, ziyalı, səmimi, qayğıkeş dost və həmkar, gözəl ailə başçısı kimi xarakterizə edən cəhətlərdən söz açdılar. Onlar bildirdilər ki, A.İrşadoğlunun çoxillik fəaliyyəti həm jurnalistikaya, həm də ölkəmizin hərb tarixinə müstəsna xidmətin təkrarsız nümunəsidir və bu nümunənin yaranması peşəkarlıqla yanaşı, fədakarlıq da tələb edib. Çıxış edənlər, həmçinin, yubilyarı vətənpərvərliyi jurnalistikada peşə standartı kimi göstərmənin bənzərsiz örnəyi adlandırdılar.

Sonda çıxış edən Adil İrşadoğlu jurnalist fəaliyyətinə verilən yüksək dəyərə, xoş sözlərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirdi.

Xatırladaq ki, I Qarabağ müharibəsinin iştirakçısı olmuş Adil İrşadoğlu (Əliyev) 1961-ci il noyabrın 1-də Ağdamda anadan olub. 1972–1977-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, böyük redaktor və şöbə müdiri vəzifələrində işləyib. Qarabağdan azərbaycanlıların sıxışdırılıb çıxarılmasının qarşısını almaq üçün 1989-cu ildə Şuşa şəhərinin teleötürücü stansiyasının nəzdində kiçik studiyanın yaradılmasında və ermeni işğalçılarına qarşı əks təbliğatın aparılmasında yaxından iştirak edib. Həmçinin, dövlət televiziyasının hərbi vətənpərvərlik verilişləri baş redaksiyasının təşkilinə və fəaliyyət göstərməsinə əmək sərf edib. Çalışdığı müddətdə 3000–dən çox veriliş hazırlayıb.

***T.RÜSTƏMLİ***
***XQ***

Türksoy teatr festivalı

# "Qorqud əfsanəsi" Azərbaycan səhnəsində

**TÜRKSOY-un I Beynəlxalq Teatr Festivalı tədbiri çərçivəsində Türküstan (Qazaxıstan Respublikası) Musiqili Dram Teatrının iştirakı ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində Ermek Amanşayevin "Qorqud əfsanəsi" tamaşası nümayiş olunub.**




Plastik quruluşda səhnələşdirilmiş tamaşa türk dünyasının mənəvi atası sayılan Qorqud irsinə və qədim türklərin əsas musiqi aləti olan qopuza hörmətin simvoludur. Müasir xoreoqrafiyaya malik tamaşa Qorqudun dünyaya gəlişi, ilk gündən zülmət və vəhşi təbiətlə müşayiət olunması ilə başlayır. Qorqud yuxuda insanların ona qəbir qazdıqlarını görür. Bu kabusdan xilas olmaq üçün Zelmaya adlı dəvəsinə minərək uzaq diyarlara üz tutur. Lakin ölüm mələyi cildinə girən Pəri Martunun kölgəsi onu rahat buraxmır, qarabaqara izləyir. İnsanların xoşbəxt yaşadığı müqəddəs Zeruyik vadisinin axtarışına çıxan Qorqud axırda Sırdərya çayı sahilində yerləşən doğma yurduna geri qayıdır. Məşəqqətli keçən səyahəti ona həyatın əbədi, insan taleyinin isə müvəqqəti olmasını öyrədir. O, həyatın vacib missiyasını qopuzun füsunkar melodiyaları vasitəsilə insanlara xidmət etməkdə görür.

Tanrının varlıqların həyatındakı rolu, müasir dünyada həqiqi incəsənət mövzusu tamaşanın əsas məğzini təşkil edir. Səhnə əsərinin müəllifi Ermek Amanşayev, xoreoqraf ustası və direktoru Konstantin Semenov, bəstəkarı Xamit Şangaliyevdir.

Rolları aktyorlar Elaman Abdikalyk, Farxat Sadvokassov, Akylai Sydygaliева, Malika Minizini, Rustam Şaikhov, Sakai Mao və digərləri ifa edirlər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100, Azərbaycan peşəkar milli teatrının 150 və TÜRKSOY təşkilatının 30 illiyi münasibəti ilə keçirilən festivalda TÜRKSOY-a üzv ölkələrdən – Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı, Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı və Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının kollektivləri iştirak edirlər.

***Fidan SALMANOVA***
***XQ***

Sosial xəbərlər

# "Qələbə soraqlı bayrağım"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyi Vətən müharibəsinin üçüncü ildönümünə həsr olunan "Qələbə soraqlı bayrağım" adlı aksiya keçirib.**

Tədbir çərçivəsində Vətən müharibəsi şəhidlərinin övladlarının agentliyin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinə ekskursiyası təşkil edilib. Qonaqlara mərkəzdə göstərilən xidmətlər barədə ətraflı məlumat verilib. Sonra mərkəzin yetirməleri olan əlillərin hazırladıqları 44 Azərbaycan bayrağı Vətən uğrunda canlarından keçən qəhrəmanlarımızın əmanətlərinə təqdim edilib.



Layihənin məqsədi möhtəşəm zəfərimizlə başa çatan Vətən müharibəsi şəhidlərinin ailələrinə, onların bizə yadigar qalan övladlarına kimsəsiz olmadıqlarını hiss etdirməkdir. Bundan əlavə, əlilliyi müəyyən edilmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək olmaq və şəhid övladlarının asudə vaxtının səmərəli təşkili də diqqət mərkəzindədir.

# Peşə festivalı Şəmkirdə

**Dövlət Məşğulluq Agentliyinin ölkəmizdə ikinci dəfə keçirdiyi festivalın ünvanı Şəmkir rayonu olub. "Peşəni peşəkardan soruş!" devizi ilə təşkil edilən festivalda son dövrdə həyata keçirilən sosial islahatlar barədə məlumat verilib, xüsusilə gənclərin əmək bazarına hazırlanması üçün ciddi işlərin görüldüyü, peşələr festivallarının da bu istiqamətdə önəmli addımlardan biri olduğu bildirilib.**




Agentliyin əməkdaşları təqdim edilən peşələrin stendləri ilə tanış olub, ekspertlərlə söhbət edib, gənclərə öz tövsiyələrini veriblər. Festival çərçivəsində robototexnika, proqram tərtibatçısı, data analitika, aşpaz, aqronom, bərbər, mobil telefonların təmiri ustası, elektrik avadanlıqların təmiri, yardım masası, dizayner, qrafik-dizayner, geyim üzrə dizayner, fotoqraf-videoqraf peşələri üzrə peşəkar ekspertlər tərəfindən təqdimat və vörkşoplar keçirilib.

Qeyd edək ki, bu dəfə də ölkənin 10 rayon və şəhərində keçirilən festivalda iştirakçılar peşələr üzrə hansı bacarıqların tələb olunduğunu öyrənir, müxtəlif peşələr üzrə ekspertlərin təqdimatlarında iştirak edir və peşələrlə əyani şəkildə tanış olmaq imkanı qazanırlar.

Növbəti festival Salyan rayonunda keçiriləcək.

# Məşğulluğa dəstək artır

**Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa dəstək layihəsi" çərçivəsində iştirakçıların seçdikləri istehsal və xidmət sahələri üzrə avadanlıqlarla təminatı intensiv şəkildə davam edir.**

Layihə çərçivəsində ölkəmizin müxtəlif bölgələrində daha 250-dək işsiz şəxsə biznes planlarına uyğun vəsait təqdim olunub.

Dəstəyin məqsədi işsiz kimi qeydiyyatda olan şəhid ailəsi üzvləri, əlilliyi olan şəxslər, keçmiş məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar, qadınlar, gənclər və həssas qruplardan olan digər şəxslərin özünəməşğulluq üzrə kiçik biznesə və layiqli məşğulluğa çıxışına şərait yaradılmasıdır.

Ümumilikdə, 2025-ci ilə qədər davam edəcək layihə çərçivəsində 22 min işsiz şəxsin kiçik biznesə çıxışına



imkan yaradılması nəzərdə tutulub.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Ağdam yenə Qarabağın baş qapısıdır

## Azad edilmiş ərazilərdə sənayenin dirçəldilməsinə bu şəhərdən başlanıb

**Nəzarət-buraxılış məntəqəsində sənədlərimiz yoxlanıldıqdan sonra yolumuza davam edirik. Yol boyu düşmənin qazdığı səngərlər, mühəndis istekam qurğuları, müşahidə məntəqələri və s. diqqətimizi çəkir.**

Yolun hər iki tərəfində üzərində "Təhlükəlidir. Mina!" yazılı qırmızı rəngdə üçbucaq formasında lövhələr diqqət çəkir. Onların sayı o qədər çoxdur ki, hətta istehkamçılar minatəmizləmə işində çətinlik çəkirlər. Bu ərazini təhlükəli edən səbəblərdən biri də müxtəlif təyinatlı minaların bir yerdə basdırılmasıdır. Məsələn, piyada əleyhinə minanın üzərinə tank əleyhinə mina düzüblər. Onu çəkən vaxt altdakı mina da işə düşür. Çünki bu iki mina tələ məftili ilə bir-birinə bağlı olur. Bir minanı zərərsizləşdirən vaxt digər mina partlayır.

**Bir az öndə, Ağdama gedən yolun sağ tərəfində diqqətimizi mexaniki minatəmizləyən maşın və onun işini uzaqdan izləyən iki nəfər çəkdi. Onlara yaxınlaşdıq. Məlum oldu ki, minatəmizləyən maşını uzaq məsafədən idarə edən operatorlardı. Zahid Hüseynov bildirdi:**

– Düşmən ağla gəlməyən yerlərə belə minalar, tələ-sürprizlər qoyub: Yolların kənarları, cığırlar, ehtimal olunan keçid yerləri, evlərin xarabalıqları. Hazırda yolun ətrafında minatəmizləmə əməliyyatı həyata keçiririk. Avtomobil yolu və onun kənarları tam təmizlənməlidir ki, kommunikasiya xətləri çəkilsin. Uzaqdan idarə etdiyimiz bu minatəmizləyən maşın "Bozena-5" adlanır və Slovakiyanın "Slovak Way Industries" şirkəti tərəfindən istehsal edilib. Minalardan təmizlənmə dərinliyi 300–350 mm-ə qədər olan texnikanın hər birinin qiyməti isə 1,5 milyon dollardır. Onun köməyilə bugünədək infrastrukturun qurulduğu xeyli ərazini minalardan təmizləmişik.

### Əvvəl yol, sonra quruculuq

Ağdam şəhərinə Bərdə–Ağdam dəmir yolu xəttini keçib daxil oluruq. Bu dəmir yolunun inşası Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən, "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tərəfindən yerinə yetirilir. Uzunölçülü relslər 100 faiz quraşdırılıb, 128 mühəndis qurğusunun tikintisi başa çatdırılıb. Bu onu göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən olan Bərdə–Ağdam dəmir yolunun inşası yekunlaşmaq üzrədir. Dəmir yolu xətti Ağdam Sənaye Parkının yaxınlığından keçir. Ərazidən keçəcək digər infrastruktur Bərdı–Ağdam yoludur. Onun da tikintisi yekunlaşmaq üzrədir. Uzunluğu 44,5 kilometr olan avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolda qovşaqlar, körpülər, yeraltı keçidlər və digər qurğuların inşası tam başa çatdırılıb.

Ümumilikdə, layihə üzrə nəzərdə tutulan işlərin 90 faizindən çoxu icra edilib. Yolun tikintisinin yaxın müddətdə başa çatdırılması üçün əraziyə lazımi sayda qüvvə də cəlb olunub. Bu yolun davamı olan Ağdam–Füzuli avtomobil yolunun inşası da davam edir. 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam–Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biridir. Yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir.

Biz Ağdamda olanda yolda torpaq işlərinin icrası çərçivəsində yararsız süxurun çıxarılması, qazma, yatağın genişləndirilməsi işləri davam etdirilirdi. Həmçinin yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılırdı. Yol üzərində layihələndirilən körpülərin tikintisi davam etdirilir və yol əsasının inşası bitən hissələrdə asfalt-beton örtüyünün döşənməsi işləri görülürdü. Qeyd edək ki, yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yol boyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.




Rayon ərazisində inşası davam edən avtomobil yollarından biri də Ağdam–Hindarx–Ağcabədi yolunun Ağdam–Hindarx hissəsinin yenidən qurulmasıdır. Biz Ağdama bu yolla gəldik. Yolda işlərin çox hissəsi görülüb, bir hissəsi asfalt örtüyünün çəkilməsi üçün hazırdır. Əminik ki, tezliklə bu işlər də görüləcək və yol sakinlərin istifadəsinə veriləcək.

İnfrastruktur layihələrinin istifadəyə verilməsi isə regionun iqtisadi inkişafına böyük zəmin yaradacaq, məskunlaşma zamanı əhalinin sosial vəziyyəti daha da yaxşılaşacaq. Qarabağın inkişafına xidmət göstərəcək bu yeni yollar, həm də Azərbaycanın quruculuq əzminin göstəricisidir. Ən əsası bu yolların hər biri dövlətimizin gücünü, potensialını, Prezident İlham Əliyevin qətiyyətini və siyasi iradəsini təcəssüm etdirir. Təbii ki, həyata keçirilən layihələr son deyil, çünki şəhər və kəndlərimiz bərpa olunduqca yerli və məhəlli əhəmiyyətli yeni yollar inşa ediləcək.



### Müasir sənaye mərkəzi yaradılır

Dəmir yolu xəttini keçdikdən sonra gördüyümüz mənzərə bizdə ikili duyğu yaratdı. Bir tərəfdə dağıdılmış, divarları, pəncərələri sökülmüş və ya torpağa qarışmış binalar, ot və kol basmış küçələr, digər tərəfdən isə tikilməkdə olan yaşayış komleksləri, sənaye müəssisələri, infrastruktur, inzibati binalar, sosial obyektlər. Həm qan donduran, həm də qürur verən mənzərə.

Yaxınlıqdakı Ağdam Sənaye Parkı da diqqətimizi çəkdi. Bu, Qarabağda salınan ilk sənaye parkıdır. Bəs bu məqsəd üçün niyə Ağdam seçilib? Çünki Ağdam Qarabağın giriş qapısıdır. Onun regiondakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

**Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir. Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımov dedi:**

– Dövlət başçısının müvafiq fərmanlarına əsasən, Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda 200 hektar ərazidə isə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sözügedən sənaye parklarının yaradılmasnda məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Buranın coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Ağdam Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Sözügedən sənaye parkına sahibkarlar tərəfindən maraq böyükdür. Hazırda Ağdam Sənaye Parkının 19 rezidenti və 6 qeyri-rezidenti var. Bu investorlar tərəfindən sənaye parkına 176 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Rezidentlər tərəfindən inşası davam etdirilən ilk müəssisənin 2024-cü ildə fəaliyyətə başlaması planlaşdırılır. Sənaye parkına 12 milyon manata yaxın investisiya yatırılıb.

İqtisadi Zonaların İnkişafı Agentliyi olaraq rezidentlərə onların qeydiyyata alındıqları andan etibarən həm təşkilati dəstək (Bir pəncərə, Texniki şərtlərin, xüsusi icazələrin və lisenziyaların alınması; Məsləhət və təlim xidmətləri; Yerli hakimiyyət orqanları və iş adamları ilə görüşlərin təşkili) həm də infrastruktur (elektrik enerjisi təchizatı, təbii qazla, içməli və texniki su ilə təminetmə, daxili avtomobil və dəmir yolu xətlərinin çəkilməsi, fiber optik və s.) dəstəyi göstərilir. İlkin olaraq onların layihələrinin əsaslandırılması onların aidiyyəti dövlət orqanları ilə razılaşdırılması, tikinti icazələrinin alınması "Bir Pəncərə" sistemi altında tez bir zamanda həll edilir.

**Elçin Kazımovun sözlərinə görə, Ağdam Sənaye Parkında artıq mobil şəhərcik salınıb, infrastrukturun qurulması istiqamətində işlər görülür:**

– Artıq Ağdam Sənaye Parkında rezidentlərdən bir çoxu – "Eos Qrup" MMC (qaz beton istehsalı müəssisəsi), "Qarabağ Steel" MMC (boru və qutu profillərin istehsalı müəssisəsi), "BAFCO İnvest" MMC (müxtəlif təyinatlı çəkmə və ayaqqabıların istehsalı müəssisəsi), "Mister Decor" MMC (divar kağızlarının istehsalı müəssisəsi), "Metkons" MMC (havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların istehsalı müəssisəsi), "Rail Trans Service" MMC (müxtəlif növ dəmir yolu avadanlıqlarının istehsalı müəssisəsi), "Dadaş-N" MMC (müxtəlif çeşiddə sintetik xalçaların istehsalı müəssisəsi) – tikinti işlərinə başlayıblar. Digərlərində isə layihələndirmə işləri görülür. Həmçinin Sənaye Parkında inzibati binanın, yarımstansiyanın tikintisi işləri aparılır. Bundan başqa. Parkın artıq 1 qeyri-rezidenti "Yüksəl Beton" QSC-nin beton istehsalı müəssisəsi fəaliyyətə başlayıb. Şirkətin istehsal etdiyi beton məhsulu Ağdam Sənaye Parkı ilə yanaşı, rayonda aparılan tikinti-quraşdırma işlərində də istifadə olunur.

Elçin Kazımov bildirdi ki, Ağdam Sənaye Parkında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılır və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla – qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber optik xətlərlə təmin edilirlər. Eyni zamanda qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bu il yanvarın 1-dən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Bura sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət verilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi, əmək miqrasiyası kvotasının tətbiq edilməməsi (əcnəbi mütəxəssislərə əmək miqrasiyası kvotasının 5 il tətbiq edilməməsi) də daxildir. İşğaldan azad edilmiş ərazidə fəaliyyət göstərən sahibkar tərəfindən istehsal prosesində istifadə edilən bir sıra xammal və materialların idxalı 10 il müddətinə ƏDV-dən azad olunur. İstehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 10 il müddətində hər ay istehlak edilən kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödənilir.

Ərazidə sosial obyektlər də yaradılıb və orada işləyən işçilərin istifadəsinə verilib. Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza və aptek yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Parkın ərazisində bankların bankomatları quraşdırılıb. Sənaye parkının ərazisində işçilər üçün yeməkxana fəaliyyət göstərir. Burada onlara gündə cəmi 12 manata 3 dəfə yemək təklif olunur.




**Elçin Kazımov dedi:**

– Müasir istehsal infrastrukturuna malik sənaye parkının yaradılması isə Qarabağda sənaye sahələrinin, ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsi ilə yanaşı, istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutur.Bu, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəzləyən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi vəzifələrin yerinə yetirilməsi baxımından əhəmiyyətlidir. Bu müəssisələrdə açılacaq yeni iş yerləri Ağdam əhalisinin işsizlik kimi bir problemlə üzləşməsinin qarşısını alacaq.

### Yaşayış kompleksləri tikilir

Ağdam Sənaye Parkında müəssisələrin işə düşməsi işçilərə tələbatı artırır, keçmiş məcburi köçkünlərin məskunlaşdırılmasını gündəmə gətirir. İşğaldan azad edilmiş Ağdam şəhərinə və rayonun digər kəndlərinə köçün 2025-ci ildən həyata keçirilməsi nəzərdə tutulur.

**Bu barədə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dedi:**



– Ağdam şəhərində ərazi geniş olduğu və bu səbəbdən də böyük həcmdə infrastruktur quruculuğu aparıldığı üçün məskunlaşmanın 2023-cü ilin sonunda başlanacağı nəzərdə tutulur. Ümumiyyətlə, 2026-cı ilin sonunadək Ağdam şəhərinə 20 min keçmiş məcburi köçkünün köçürülməsi planlaşdırılır. Onların məskunlaşması məqsədilə yaşayış komplekslərinin tikintisi davam edir. Birinci yaşayış komleksi Ağdam Sənaye Parkının yaxınlığında yerləşir. Bu yaşayış komleksində olduq. 6 binadan ibarət kompleksdə tikinti işlərinin 2023-cü ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulub.

Biz ərazidə olarkən yaşayış kompleksində qızğın iş gedirdi. Məlum oldu ki, ilk yaşayış komplekslərini özəl şirkət tikir. "PMD Group" MMC tərəfindən tikilən "Ağdam Rezidens" yaşayış kompleksi, ümumilikdə, 209 mənzildən ibarətdir.

Kompleksin birinci mərtəbələri ticarət və iaşə obyektəri üçün nəzərdə tutulub. Burada ziyarətçilərin rahatlığı üçün hər cür şərait yaradılır. Ailələrin alış-veriş və asudə vaxtlarını birlikdə keçirə biləcəyi qonaqpərvər və inklüziv mühit təmin ediləcək, yeraltı parkinq xidməti göstəriləcək. Bu yaşayış kompleksi Ağdam şəhərinin yenidən qurulması, abadlaşdırılması və inkişafının təmin olunması istiqamətində öz əvəzsiz töhfəsini verəcəkdir.

Özəl sektor daha bir layihənin həyata keçirilməsində iştirak edir. Hazırda "Park Hill" şirkəti tərəfindən "Park Qarabağ» yaşayış kompleksinin inşası davam edir. Bu kompleksin layihələndirilməsi Azərbaycanın "Azərbaycan inkişaf", ABŞ-ın "Gensler" və Türkiyənin "URAL mühəndislik" şirkətləri tərəfindən həyata keçirilib. "Park Qarabağ" yaşayış kompleksi də şəhərin mərkəzində, məscidin və gələcəkdə salınacaq mərkəzi parkın yaxınlığında inşa edilir. Eyni zamanda, yeni tikilən bina Ağdam–Bərdə yolunun üstündə yerləşir. Layihənin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hazırda qeyd olunan yaşayış komplekslərinin mənzilləri satışa çıxarılıb. Əldə olunan gəlir digər yaşayış binalarının tikintisinə yönəldiləcək.

Ərazidə daha 2 yaşayış kompleksinin də təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2-ci və 3 yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib. Bizə bildirdilər ki, 2-ci yaşayış məhəlləsinin ümumi sahəsi 14 hektara yaxındır. Yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş Planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında, ümumilikdə, 1268 mənzil olacaq.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi vasitəsilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin tikintisi də davam edir. Ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239 mənzil olacaq. Tezliklə şəhər ərazisində digər yaşayış komplekslərinin tikintisinə də başlanacaq. Ağdam öz müasirliyi və urbanizasiya səviyyəsinə, simasına görə daha çox müasir bir şəhər təəssüratı yaradacaq.

Emin Hüseynov dedi ki, şəhərin əhalisi 100 min nəfər nəzərdə tutulub. Əhalinin yalnız 30 faizi fərdi evlərdə yaşayacaq. Bunun üçün 1750 fərdi ev nəzərdə tutulub. Qalan 70 faizi isə binalarda yaşayacaq. Bu məqsədlə isə 23 min mənzil olacaq.

Beləliklə, Ağdamın təsdiq olunmuş Baş Planına uyğun olaraq şəhərin mərhələli şəkildə tikintisi davam etdirilir. Aparılan işlər göstərir ki, Ağdam bərpadan sonra regionun sənaye mərkəzinə çevriləcək. Azərbaycan iqtisadiyyatında artım tempini daha da sürətləndirəcək. Eyni zamanda şəhərdə sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Yenidənqurma işləri zamanı milli memarlıq elementlərindən istifadə ediləcək. Sakinlər rahat evlərdə yaşayacaqlar.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

**Bakı–Ağdam–Bakı**

6 Noyabr Azərbaycan Televiziyası və Radiosu Günüdür

# “Danışır və göstərir Bakı”

## Teleradio auditoriyası bütün ölkəmiz olan ən böyük tribunadır

**Radio və televiziyanın həyatımıza daxil olmasından uzun illər keçsə də, “sehrli qutu” öz sirrini saxlayır, mavi ekranın cazibəsi davam edir. Respublikamızda radio 1926-cı ilin noyabrın 6-da fəaliyyətə başlayıb, televiziya isə 1956-cı il fevralın 14-də “Bakı” studiyası adı ilə efirə çıxıb.**



Sovet dövründə yalnız bir Azərbaycan televiziya və radiosu fəaliyyət göstərirdi. Sonralar əlavə olaraq bura “Araz” radiostansiyası da qoşuldu. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra müstəqil teleradio şirkətlərinin sayı da artdı. Təkcə paytaxtda deyil, bölgələrdə də televiziya kanalları fəaliyyətə başladı. Ölkə miqyaslı kanallar nəinki respublikamızda, sərhədlərimizdən kənarda da özünə tamaşaçı auditoriyası toplayıb.

Ana televiziyamızın (“Azərbaycan Televiziya və Radio Verilişləri” QSC) nəzdində fəaliyyət göstərən iki müstəqil kanal – “İdman-Azərbaycan”, “Mədəniyyət” kanalları artıq tamaşaçılar tərəfindən maraqla izlənilir. O cümlədən, “Real”, ATV, İTV, “Xəzər”, “Space” televiziyalarının da öz auditoriyası formalaşıb. Gəncə, Zaqatala, Sumqayıt, Quba, Mingəçevir, Tovuz, Şəki, Yevlax, Xaçmaz və cənub bölgələrində fəaliyyət göstərən televiziya kanalları öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar. Naxçıvan Muxtar Respublikasında Dövlət Televiziya və Radio Verilişləri Komitəsi də məhsuldar fəaliyyət göstərir. Bundan başqa, xaricdə azərbaycandilli televiziya kanalları da mövcuddur: ABŞ-da Günaz, Kanadada AzCan, Rusiyada İnterAz TV-ləri var.




Son illərdə AzTV-nin maddi-texniki bazası xeyli dərəcədə dəyişib və modernləşdirilib. Bütün studiyalar və montaj otaqları rəqəmsal avadanlıqla təchiz olunub. HD-səyyar televiziya stansiyaları alınıb. Nəqliyyat vasitələri də yenilənib və müasirləşdirilib. Televiziya proqramlarının Avropa ölkələrində keyfiyyətlə yayımı təmin edilib. “Teleradio” İstehsalat Birliyinin mütəxəssisləri teleqüllə kompleksində yeni rəqəmsal stansiya quraşdırıblar. İndi Azərbaycan televiziyasının verilişləri həmin stansiyadan Avropaya, Şimali Amerikaya, Asiyaya yayılır.

Ötən illər ərzində AzTV-də mövzu dairəsi kifayət qədər geniş və rəngarəng olan müxtəlif veriliş və proqramlar müşahidə edilir: “Vətənim Azərbaycan”, “Azərbaycan deyəndə”, “AzTV Xəbər", “Xəbərlər”, “Həftə”, “Region xəbərləri”, “İqtisadiyyat xəbərləri”, "Əsas məsələ", “Günə davam”, “Çöl adamı macəra axtarışında”, “Məmləkətim”, “Tarixin izi ilə”, “Döyüşçü”, “Obyektiv”, “Parlament saatı”, “Oxuyur Vətən”, “Türk dünyası”, “Mən azərbaycanlıyam”, “Görüş yeri” və s.

Son illər isə televiziyamızın tarixində daha əlamətdar, şərəfli və yadda qalan oldu. 44 günlük möhtəşəm mübarizəmizdə, torpaqlarımızın mənfur düşmənlərdən təmizlənməsində igidlərimizin göstərdiyi qəhrəmanlıqlar barəsində ilk məlumatları məhz ana televiziyamız bizə çatdırırdı. Bu, danılmaz bir faktdır ki, həmin həyəcanlı günlərdə bütün gözlər AzTV-yə dikilmişdi. Zəfər xəbərini də bizə çatdıran məhz ana televiziyamız oldu. Şuşada, Xankəndidə üçrəngli bayrağımızın Ali Baş Komandanımız İlham Əliyev tərəfindən ucaldılmasını ana televiziyamızdan həyəcanla izləmişik.

AzTV-nin studiyalarında maraqlı teletamaşalar da çəkilib. “Zəfər günü” ilə əlaqədar müxtəlif sənədli film, veriliş və konsertlər lentə alınıb. Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı müxtəlif sənədli filmlər, proqramlar nümayiş etdirilib.

Azərbaycan televiziya məkanının ən gənc mavi ekranı “Mədəniyyət” kanalıdır. Barlı-bəhrəli, qocaman bir ağacın – AzTV-nin çəmənində göyərən bu pöhrənin yenilikləri çoxdur. Mədəniyyət aləmində baş verən ən son yeniliklər, maraqlı hadisələr, yarışmalar, yubileylər, görüşlər bu kanalda hazırlanan müxtəlif verilişlərdə əhatəli şəkildə əks olunur. “Səhər çağı”, “Mədəniyyət xəbərləri", “Nəcib söhbətlər” , “Vətənim”, “Yadigarlar”, “Saz-söz axşamı”, “Gerçəklər”, “Üçüncü zəng”, Bəhruz Niftəliyevin təqdimatında “O” verilişi, “Yaşananlar” , “Qırmızı xalı”, “Danışan heykəllər” “Yada düşər xatirələr”, “Şərqilər”, “Kino evimizdə”, “Ümid işığı”, “1895”, “Otuz ikidən biri” , “Köhnə televizor”, “Nağıl vaxtı” və s. verilişlər artıq tamaşaçıların diqqətini çəkib. Bu kanalda dünya kinosunun və musiqisinin ən dəyərli nümunələri təqdim olunur.

“İdman” telekanalı yarandığı gündən beynəlxalq və yerli yarışların, turnirlərin əksəriyyətini yayımlayır. İdmanın müxtəlif növləri üzrə keçirilən yarışlardan canlı reportajlar, maraqlı proqramlar nümayiş etdirilir. Bu gün “İdman” gənclərin sevimli kanalına çevrilib. Bu kanalın yayım hüdudu təkcə bölgələrimizi deyil, Cənubi Qafqazı, Yaxın və Orta Şərq ölkələrini əhatə edir. "İdman" telekanalı idmanın bütün növlərinin təbliğində mühüm rol oynayır. Kanalın səhər verilişi isə tamaşaçıları hər səhər idmana səsləyir.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanla bağlı AzTV-nin hər üç kanalında müntəzəm olaraq mütəlif verilişlər filmlər, süjetlər, reportaşlar, xəbərlər, videoçarxlar hazırlanaraq tamaşaçılara təqdim olunur.

Televiziyada aparılan islahatlar radioda da müşahidə edilir. Milli radiomuz tam şəkildə kompüterləşməyə və servis xidmətinə keçib. Azərbaycan radiosunun “Lirika dəftərindən”, “Bulaq”, “Muğam saatı”, “Elm və həyat”, “Radio teatrı” kimi proqramları neçə nəslin sevimlisi olub.

Bir məsələni də qeyd etmək lazımdır ki, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC həmişə dövlətçiliyin, milli-mənəvi dəyərlərin keşiyində dayanıb. Təqdim etdiyi verilişlər əxlaqımıza, mənəvi dəyərlərimizə, adət-ənənəmizə, milli düşüncəmizə söykənib. Yüngül şoulardan, şit, zövqsüz söhbətlərdən uzaq olub. Maarifçilik əsas ideyasıdır. Elə bu uğuruna görədir ki, AzTV fəaliyyət göstərdiyi illər ərzində “Avropa keyfiyyəti” medalına layiq görülüb. Eləcə də Avropa Biznes Assambleyası Azərbaycan televiziyasına “Teleradio yayım sahəsində ən yaxşı şirkət” mükafatını təqdim edib. Burada çalışan əməkdaşlar müntəzəm olaraq dövlət tərəfindən müxtəlif mükafatlara, fəxri adlara, Prezident təqaüdünə, orden və medallara layiq görülüb, mənzillə təmin olunublar.

Əlbəttə, bütün bu nailiyyətlərin qazanılmasında televiziya rəhbərliyinin, yaradıcı heyətin xüsusi əməyi var. Son illərdə aparılan islahatlar öz bəhrəsini verib. Tamaşaçı kimi bizim üçün də xoşdur ki, ana televiziyamız öz ənənəsinə sadiqliyi ilə seçilir, milli-mənəvi dəyərlərimizin təbliğində yorulmadan axtarışlar aparır. Təqdim olunan hər bir verilişdə dilimizin saflığı qorunur, maarifçilik aşılanır, vətənpərvərlik amalı tamaşaçının ruhuna hopur.

Bu il radiomuzun 97, televiziyamızın isə 67 yaşı tamam olur. Bu münasibətlə bütün elektron KİV-də çalışan həmkarlarımızı təbrik edir, onlara çətin və şərəfli işlərində yeni uğurlar arzulayırıq.

***Flora XƏLİLZADƏ,***
***Əməkdar jurnalist***

Ədəbi əsərlərin ekran həlli

# Rasim Ocaqovun “Tütək səsi”nin tarixdən gələn əks-sədası

**“Tütək səsi” Rasim Ocaqovun rejissor kimi ilk filmi olub. İsa Hüseynovun “Tütək səsi” və “Saz” povestləri əsasında çəkilmiş bu film 1976-cı ildə ekranlara çıxıb. SSRİ Dövlət mükafatına layiq görülən filmin ilk nümayişləri Moskvada və Berlində olub. Rasim Ocaqov bu filmdən sonra 12 bədii film çəkib, amma “Tütək səsi” ən çox sevdiyi film sayılır.**

Uzun illər operator işləyən, amma rejissor olmaq istəyən Rasim Ocaqov “Qatır Məmməd” filminin sınağından yenicə çıxmışdı. Hadisə belə olub. O zaman Hüseyn Seyidzadənin çəkdiyi “Gəncəbasarlı qisasçı” filmini sovet kinematoqrafiyasının rəhbərləri bəyənməyiblər. Çəkiliş yarımçıq qalıb, Rasim Ocaqovu çağırıb təklif ediblər ki, al, bu film, bu da sən, öhdəsindən gəlsən, rejissorluğa vəsiqə almış olursan. Rasim Ocaqov naəlac qalaraq ayrılan vəsaiti xərclənmiş, kinematoqrafiya dili ilə desək, “yanmış” bir filmi çəkməyə başlayıb. 40 günün içində tamamlanan “Qatır Məmməd” bəyənilib. Kinematoqrafçılar Rasim Ocaqovun öz adını “Gəncəbasarlı xilaskar” qoyublar.

İsa Hüseynovun “Tütək səsi” ssenarisi bundan sonra ona həvalə olunub. Rasim Ocaqov ssenarini oxuyub və özünün ifadə etdiyi kimi, görüb ki, mövzu ovcunun içindədir. Rejissor bunu sonralar belə xatırlamışdı: “Bütün hadisələr mənim yaşadığım dövrdə baş verib. Özüm talonla çörək almışam. Qohum-əqrabam müharibədə olub, çoxusundan qara kağız gəldiyinin gözlərimlə şahidi olmuşam.”

Aktyorlar danışırlar ki, filmin çəkilişlərində Akif Məhərrəmli, Şamil Süleymanov kotanla yer əkə bilmirlər, Rasim Ocaqov kotanı onların əlindən alıb elə gözəl yer əkib ki, bütün çəkiliş qrupu heyran qalıb. Rejissor əsas rola artıq Qatır Məmməd obrazından sonra çox bəyəndiyi Şahmar Ələkbərovu çəkmək istəyirmiş. Çəkilişlər başlanan vaxt Şahmar Ələkbərov ağır xəstələnib. Rejissor “Qaraçı” filminin qəhrəmanı Mixay Volontiri baş rola dəvət edir. Obrazı səsləndirməyi isə Şahmar Ələkbərova həvalə ediblər.

**Tapdıq rolunun ifaçısı, tanınmış jurnalist Akif Məhərrəmli illər keçəndən sonra bildirdi:**

– “Tütək səsi” mənim taleyimdə dərin iz buraxıb. Ssenarinin, rejissorun və yaradıcı kollektivin sanbalına görə film çox güclüdür, həm də büsbütün Azərbaycan xarakterlidir. Çox məqamdan söz aça bilərəm, amma ən maraqlı olan ordakı yaradıcı qrup və ərsəyə gələn baxımlı bir filmdir.

**Şamil Süleymanov (Cümrü) isə dedi:** “Əvvəl çəkilmək istəmirdim, çünki Baladadaşdan sonra Cümrü olmaq istəmirdim. Akif Məhərrəmlinin şəklini görəndə isə razılaşdım, sandım ki, məndən başqa onun qardaşını oynaya biləcək aktyor yoxdur. İsa Hüseynovla işləmək mənə çox şey öyrətdi. Unudulmaz anlar çoxdur. Axşamlar Məmmədrza Şeyxzamanov üçün çay dəmləyirdik ki, gəlib bizimlə otursun, çünki tələbə idik, sənət söhbətlərinə böyük ehtiyacımız vardı.

30 il sonra Nabranda dincələrkən maraqlı bir hadisə ilə rastlaşdım. Süd-qatıq



aldığım qonşu məndən pul almırdı. Bir gün də həmin qonşuya süd dalınca gedəndə həyət qapısında balaca bir uşaq dedi: Cümrü əmi, atam dedi ki, siz gəlməyin, biz özümüz süd-qatığı sizin evə gətirərik. Məlum oldu ki, filmdə Cümrünün tütək çaldığı epizod Qusarda həmin adamın evinin damında çəkilibmiş.

Ssenari müəllifi İsa Hüseynov, adətincə, bütün çəkiliş günlərində yaradıcı qrupla birgə çəkiliş meydanlarında olub. İsfəndiyar kişinin çaldığı sazı İsa Hüseynov özü səsləndirməklə bərabər, Məmmədrza Şeyxzamanova sazı necə tutmağı da öyrədib. Həmin epizod 9 dubla çəkilib.

Çəkilişlər Qusarın Anıx və Hil kəndlərində aparılıb. İsfəndiyar kişinin “Ruhani” havası çaldığı həmin epizodda kütləvi səhnələrdə çəkilən kənd camaatı ona qoşulub ağlayırmış. Çəkiliş vaxtı kənd camaatı bəzən hadisələrə elə aludə olurmuş ki, baş verənlərin film olduğunu unudurmuşlar.

Məsələn, Ötkəm İsgəndərovun (Nuru) dediyinə görə, Qılınc Qurbanla Cəbrayılın səhnəsində camaat Cəbrayılın əleyhinə çıxıb. Rejissor hər ehtimala qarşı çəkiliş meydançasına milis çağırmalı olub...

Filmin bəstəkarı Aqşin Əlizadə, rəssamı Elbəy Rzaquliyevdir.

***R.QURBANLI***
***XQ***

Yaddaşlarda yaşayanlar

**Bu qısa yazıda üç mərhum ziyalımıza Allahdan rəhmət diləyirəm. Üçü də dəyərli insanlar idi. Ancaq onlar arasında ən çox ünsiyyətdə olduğumm, altı-yeddi ay müəllimim olmuş professor Kamil Əliyev idi.**

... Orta məktəbi bitirəndən beş il sonra (özümdən asılı olmayan səbəblər üzündən) ali məktəbə ilk dəfə imtahan vermək şansım 1976-cı ildə olmuşdu. Təbii ki, kənd işləri ilə bağlı lazımi səviyyədə hazırlaşa bilmədiyimə görə həmin il universitetə qəbul olmaq istəyim baş tutmadı. Ona görə də, sonrakı ilin qəbulu üçün Bakı Dövlət Universitetinin təşkil etdiyi hazırlıq kursuna yazılmalı oldum. O vaxt universitetin bəzi fakültələri isti yay günlərində institutun dəhlizlərində qara kostyumlu adamların görünməsi isə “Mərkəzi Komitə” söhbətinin şayiə olmadığının sübutu idi.

Aradan iki il keçəndən sonra Kamil müəllimi metronun “Bakı Soveti” stansiyasının qarşısında uzaqdan gördüm və əmimin, dayımın yanına gedirmiş kimi özümü sevincək ona çatdırdım: “Kamil müəllim, mən qəbul olunmuşam, ikinci kursdayam”. “Hansı fakültəyə?”- deyə

# Bir doğmalığın tarixçəsi



hələ Kommunist küçəsində (indiki istiqlal küçəsi) idi. Dil və ədəbiyyatdan hazırlıq müəllimimiz universitetin dosenti Kamil Əliyev, tarix fənnini tədris edən isə soyadını unutduğum Sadıq müəllim idi.

Hazırlıq kursundakılar arasında ən yaşlı abituriyent mən olduğuma görə idi, ya nəyə görəsə Kamil müəllim mənə daha doğma münasibət bəsləyirdi. Bir dəfə nə üçün indiyədək qəbul ola bilmədiyimi soruşdu. Kənddən Bakıya gələ bilməməyimin səbəbini danışdım və əlavə etdim ki, cəmi bir dəfə imtahan vermiş və bütün fənlərdən qiymət almışdım. Amma...

Sanki öz övladını ruhlandırırmış kimi ( sonralar yaxın qohumu Zəfər Əliyevdən öyrəndim ki, bu gözəl insanın övladı yox imiş) əlini çiynimə qoydu və ürək-dirək verdi: “Beş il kolxozda işləyəndən sonra ali təhsil almaq istəyi səni kənddən Bakıya gətiribsə, ilk dəfə iştirak etdiyin imtahanların hamısından qiymət ala bilmisənsə, bu, artıq istək yox, ali təhsil eşqidir. Mən inanıram ki, sən qəbul olunacaqsan və hansı fakültəni bitirsən də, yaxşı mütəxəssis olacaqsan”. Universitet müəlliminin bu sözlərini eşidən uşaqların hamısı çevrilib mənə baxırdılar. O anlarda elə bildim ki, həqiqətən, ali məktəbə qəbul olunmuşam. Sonra o, mənim hazırlaşmağıma ən yaxın doğma adam kimi xüsusi kömək edirdi.

Hazırlaşdıq və sonrakı il imtahanlar ərəfəsində eşitdim ki, Bakı Dövlət Universiteti partiya komitəsinin katibi, professor Aslan Aslanovu İncəsənət İnstitutuna rektor təyin ediblər. Söz yayıldı ki, İncəsənət İnstitundakı imtahanları BDU-nun müəllimləri qəbul edəcəklər. Həm də Mərkəzi Komitə əməkdaşlarının iştirakı ilə. Mən dərhal sənədlərimi həmin institutun mədəni-maarif fakültəsiunə verdim və Allaha yalvardım ki, qəbul imtahanına Kamil Əliyev də gəlsin. Gəlmədi. Dil-ədəbiyyat imtahanımızı BDU-nun professorları Pənah Xəlilov və Əkbər Ağayev qəbul etdilər. Orada qəbul imtahanı verdiyimiz soruşdu. Vəziyyəti danışdım. Sevindiyini xüsusi bir şəkildə ifadə etdi ki, BDU-ya qəbul oluna bilmədiyimə görə pərt olmayım: “Mən bilirdim ki, sən qəbul olunacaqsan. Amma elə oxu ki, istədiyin ali məktəbə qəbul olunmamağının peşmançılığını çəkməyəsən”.

... 1994-cü ilin payızı idi. Onda mən artıq üç ildən çox idi ki, dövlət radiosunda çalışırdım. Xəbər gəldi ki, Yardımlı rayonunda professor (o, 1991-ci ildən professor idi) Kamil Əliyevin əlli illiyi qeyd olunur və oraya dəvət olunan jurnalistlər arasında... mən də var idim. Sadəcə, Allah düzümü idi. Məni o siyahıya kim yazmışdısa, bilmədim. Getdik. Kamil müəllimi Yardımlıda – rayon icra hakimiyyətinin həyətində gördüm. Təbrik etdim: “Kamil müəllim, istədiyim ali məktəbə qəbul olunmasam da, sizin universitetin məzunları ilə birlikdə işləyirəm”. “Mən bilən, sənə bunu kimsə şox əvvəllər demişdi” – deyə gülümsündü.

Elə bu yerdə rəhmət oxumaq istədiyim digər iki nəfəri də xatırladım. Onların biri Yardımlı Rayon İcra Hakimiyyətinin 1994-cü ildəki başçısı Əli Quliyev idi. O, iki gün Bakıdan gələn qonaqların yanından ayrılmadı. Səhər yeməyində də, naharda da, şam yeməyində də Kamil müəllimin yanında oturdu. Həm rayon mərkəzində, həm də professorun doğulub böyüdüyü Perimbel kəndindəki tədbirlərdə Kamil müəllimin tərcümeyi-halını və yaradıcılığını heç bir qeydə-kağıza baxmadan elə danışdı, təqdim etdi ki, sanki özü haqqında danışırdı.

Rəhmətlə yad etmək istədiyim o biri ziyalımız isə universitetin professoru Firuz Sadıqzadə idi. Bu zəif bədənli, çəlimsiz insan Perimbel kəndindən Ərdəbilə–doğulub böyüdüyü şəhərə baxanda ipin üstünə sərilmiş cib dəsmalı kimə əsir, titrəyirdi. Firuz müəllim dağın zirvəsindən Ərdəbilə baxanda soruşdu ki, Kamil, buradan Ərdəbilə neçə kilometr olar? Cavab verdilər. “Kamil, sağ ol ki, məni bura gətirdin” – dedi və göz yaşlarını sildi. Sonra bu hal eynilə üç-dörd dəfə təkrar olundu.

Perimbeldən Yardımlıya qayıdanda isə Firuz müəllim Allaha yalvardı ki, kaş bu cavanlar Ərdəbili, Təbrizi, Urmiyanı görə bilsinlər!

Allah mənim üçün Firuz müəllimin Təbrizi, Ərdəbili, Urmiyanı görmək arzusunu da çin etdi.

Hər üçünə min dəfələrlə rəhmət oxumuşam. Yeri gəlmişkən, gələn ilin bu günlərində mənim ali məktəbdəki ilk müəllimim Kamil müəllimin 80 yaşı tamam olacaq. Sağlıq olsun, o vaxt daha yaxşı bir yazı hazırlayarıq. İnşallah!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***
***XQ***

# Ədəbiyyatımızın türk dostu Bakıda

**Azərbaycan Yazıçılar Birliyinin Türkiyə təmsilçisi, “Türk ədəbiyyatı dərgisi”nin baş redaktoru, araşdırmaçı-yazar İmdat Avşar illərdən bəri gözəl əsərlər yazmaqla bərabər, Azərbaycan türkcəsindən sanballı çevirmələr edərək yazıçı və şairlərimizi qardaş Türkiyədə daha yaxından tanıdır. AYB-nin Natəvan klubunda yazıçı ilə keçirilən görüşdə bu barədə geniş söhbət açıldı.**



“Qobustan” jurnalının baş redaktoru Pərvin Nurəliyeva giriş sözündə İmdat Avşar yaradıcılığının özünəməxsus xüsusiyyətlərindən, onun çoxşaxəli fəaliyyətindən, o cümlədən, Qarabağ həqiqətlərinin beynəlxalq ədəbi müstəviyə çıxarılmasında mərhum deputat Qənirə Paşayeva ilə birgə reallaşdırdığı “Qarabağ hekayələri” layihəsindən ətraflı bəhs etdi.

AYB-nin sədri, Xalq yazıçısı Anar, Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı və başqaları Azərbaycan sevdalı yazar, tanınmış ziyalı, ədəbiyyatımızın yorulmaz təbliğatçısı İmdat Afşarın ədəbi və ictimai-mədəni sahədə uğurlarından söz açdılar, ona sənət yolunda yeni nailiyyətlər arzuladılar.

Görüşdə iştirak edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələri İmdat Afşar yaradıcılığından nümunələr səsləndirdilər və ona Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin perspektivləri, gələcək planları ilə bağlı suallar verdilər.

İmdat Avşar Azərbaycan və Türkiyə xalqlarının ədəbi-məfkurəvi yaxınlığından, tarixi əlaqəsindən danışdı. Qonaq türkdilli xalqların ədəbi-estetik və ictimai-mədəni həmrəyliyinin bu birliyi şərtləndirən əsas amil olduğunu vurğuladı. O sonda Azərbaycan yazarlarının ədəbi nümunələrini Türkiyə türkcəsinə çevirməkdən daim mənəvi zövq aldığını və bu fəaliyyətini bundan sonra da məsuliyyətlə davam etdirəcəyini söylədi.

***Ə.ƏLİYEV***
***XQ***

Beynəlxalq həyat

# Yaxın Şərqdə silahlar diplomatik səylərdən güclüdür

(əvvəli 1-ci səhifədə)

Həqiqətən, BMT-nin birbaşa himayəsində olan qaçqın sığınacaqlarından artıq 50-dən çoxu ərazidə davam edən döyüşlərin təsirinə məruz qalıb. Onlardan beşi isə bombardmanlar nəticəsində dağıdılıb.

Ağır zorakılıqlar təkcə Qəzza zolağında baş vermir. Son günlər İsrailin bir çox ərəb dövlətləri, xüsusilə Livan ilə münasibətləri gərginləşib. Dünən İsrail Müdafiə Qüvvələri Livanın cənubunda hava hücumu əməliyyatı keçirib.

Bu barədə "Telegram" kanallarında video yayılıb. Paylaşılan görüntülərdə İsrail Ordusunun Livandakı hədəfi dəqiq raket zərbəsi ilə məhv etdiyi görünür. Terrorçu "Hizbullah" təşkilatı bunu cavabsız qoymayacağını bildirib.

ABŞ-ın dövlət katibi Entoni Blinken yenidən Yaxın Şərqdədir. Xatırladaq ki, bu, son 25 gün ərzində Blinkenin bölgəyə 3-cü səfəridir. O, regionda müharibənin dayandırılması üçün diplomatik səylərini davam etdirir.

Amerikalı diplomat dünən Omanda Liviya, Qətər və İordaniya rəsmiləri ilə görüşüb. Həmin görüşlərdən sonra Blinken jurnalistlərə açıqlamasında bildirib ki, İsrail–Fələstin probleminin həlli üçün "iki millət - iki dövlət" prinsipi çıxış nöqtəsi kimi qəbul olunmalıdır.

Yeri gəlmişkən, ABŞ-ın dövlət katibi Omana getməzdən əvvəl Təl-Əvivdə İsrailin Baş naziri Binyamin Netanyahu və Prezident İsxaq Hersoqla görüşərək müzakirələr aparıb. Blinken terrorçularla mücadilədə ölkəsinin İsrailə sonadək dəstək verəcəyini bildirməklə bərabər, Qəzzada çarpaz atəşə tutulan mülki şəxslərin qorunmalı və onlara kömək göstərilməli olduğunu vurğulayıb.

Regionda yaşanan humanitar böhranı həll etməkdə təkcə BMT deyil, bölgədə marağı olan böyük dövlətlər də acizdir. Görünən budur ki, onların diplomatik təşəbbüsləri, hələlik, heç bir nəticə vermir, bölgədə humanitar vəziyyət isə günbəgün ağırlaşır.

Misirlə sərhəddə yerləşən "Rəfah" keçid məntəqəsinin açıldığı çərşənbə günündən bəri çox az sayda vətəndaş Misir ərazisinə keçə bilib. Rəsmi Qahirənin bildirdiyinə görə, cümə axşamı yaralı vəziyyətdə olan yalnız 21 fələstinliyə, eləcə də 72-si uşaq olmaqla, xarici pasportu olan 344 nəfərə Qəzzanı tərk etmək nəsib olub.



Münaqişə bölgəsindən canlarını qurtarmaq istəyənlər isə on minlərlədir. Lakin onları fələstinlililərin qonşuluqlarında yerləşən nə Misir, nə də İordaniya qəbul etmək istəmir. Fələstinli soydaşlarına qarşı bu qədər biganəliyin nədən qaynaqlandığını sağlam düşüncə ilə anlamaq çətindir.

Bu arada, noyabrın 9-da Parisdə Qəzzaya humanitar yardımların təşkili ilə bağlı beynəlxalq konfrans keçiriləcək. Bu barədə məlumatda qeyd olunub ki, məqsəd fələstinli mülki əhalinin xeyrinə konkret şəkildə hərəkət etməyə qərarlı olan əsas aktorları - dövlətlər, donorlar və beynəlxalq təşkilatları səfərbər etməkdir.

Yeri gəlmişkən, HƏMAS yaraqlılarının İsrailin nəzarətində olan ərazilərə hücumu nəticəsində həlak olan Fransa vətəndaşlarının sayı 39 nəfərə çatıb. Bu barədə informasiya Fransa Xarici İşlər Nazirliyinin saytında yerləşdirilib. Xarici siyasət idarəsinin məlumatına görə, regionda daha doqquz Fransa vətəndaşı itkin düşüb. Onların bəzilərinin HƏMAS-ın əsirliyində olduğu istisna edilmir.

Bu arada məlum olub ki, Fələstin Prezidenti Mahmud Abbasın noyabrın 15-də Rusiyaya planlaşdırılan səfəri Fələstin tərəfinin xahişi ilə təxirə salınıb. Bunu jurnalistlərə Rusiya Prezidentinin Yaxın Şərq və Afrika üzrə xüsusi nümayəndəsi, xarici işlər nazirinin müavini Mixail Boqdanov bildirib.

Mahmud Abbasın səfərinin təxirə salınması regionda gərginliiyin kəskin artması ilə əlaqələndirilir. Bir çox ekspertlər HƏMAS–İsrail qarşıdurmasının genişlənərək Üçüncü Dünya müharibəsinə çevriləcəyini iddia edirlər. Bunda maraqlı güclərin olduğu da sirr deyil.

Türkiyə dövləti də Qəzzada zorakılıqların təcili dayandırılmasını tələb edir. Rəsmi Ankara qan tökülməsinin dayandırılması və sülhün bərqərar olması üçün səylərini artırır. Türkiyənin məqsədi regionda daimi və davamlı sülhə nail olmaqdır.

Acı təəssüf ki, bölgəni müharibə teatrına çevirən super dövlətlərin niyyəti bambaşqadır. Onları bu ərazidə məskunlaşan sadə, günahsız ailələrin taleyi az maraqlandırır. Halbuki Yaxın Şərqə, burada yaşayan xalqlara, dilindən, dinindən asılı olmayaraq bütün dinc insanlara sülh, sabitlik və rifah lazımdır.

***M.HACIXANLI***
***XQ***

# Kolonnanın Afrikaya anti-Rusiya tövsiyəsi

**Fransa Xarici İşlər Nazirliyinin rəhbəri Ketrin Kolonna Moskvanın "Qara qitə"də güclənməsi fonunda Parisin Afrikadakı mövqeyini itirməsi ilə bağlı sualı cavablandırarkən, Afrika ölkələrinə "Fransanı Rusiya ilə dəyişməməyi" tövsiyə edib. Bu sözlər bir daha təsdiqləyir ki, Fransa uzun illər hakim kəsildiyi qitədə fiaskoya uğrayıb və onun yerini tutmağa çalışan ölkələrə qarşı çağırışlara əl atır.**



Fransa Xarici İşlər Nazirliyinin rəhbəri Ketrin Kolonna Nigeriyaya səfəri zamanı Afrika ölkələrinə "Fransanı Rusiya ilə dəyişməyi" tövsiyə etməyəcəyini bildirib. Parisin təsirini itirməsi fonunda Moskvanın Afrikadakı mövqeyini gücləndirmək barədə jurnalistin sualını cavablandırarkən "Mən sizin yerinizdə olsaydım, Fransanı Rusiyaya dəyişməzdim" deyib. Kollona qeyd edib ki, Sahel bütün Afrika deyil. Siyasi baxımdan Sahel Beşliyinə Burkina-Faso, Mavritaniya, Mali, Niger və Çad daxildir. "Afrika və Sahel qarışdırılmamalıdır. Afrika böyük və çox müxtəlifdir. Sahel istisna olmaqla, digər ölkələrlə əlaqələrimiz yüksəlir ki, bu da bizi çox sevindirir", - deyə nazir qeyd edib. Amma burada bir məqamı qeyd etməyə dəyər ki, Afrikada baş vermiş son çevrilişlər anti-Fransa əhval-ruhiyyə dalğası ilə müşayiət olunub.

Xatırladaq ki, Mali, Burkina-Faso və Nigerdə 2021-2023-cü illərdə hərbi çevrilişlər olub. Ölkələrin yeni hakimiyyət orqanları Fransa ilə əməkdaşlığı kəsməyə başlayıb. Bundan əlavə, yayda Mərkəzi Afrikanın keçmiş metropolisi Fransanın yaxın müttəfiqi sayılan Qabonda da hərbi çevriliş baş verib. Eyni zamanda, Afrika ölkələri ilə Rusiya arasında əməkdaşlıq getdikcə artır. Belə ki, cari il iyulun 27-28-də Sankt-Peterburqda ikinci dəfə Rusiya–Afrika sammiti, iqtisadi və humanitar forum keçirilib. Tədbir 48 ölkənin və qitənin beş ən böyük inteqrasiya birliyinin rəsmi nümayəndə heyətləri ilə təmsil olunan Rusiya ilə Afrika qitəsi dövlətləri arasında geniş spektrli münasibətlərə həsr olunub. Rusiya Prezidenti Vladimir Putin Afrikanın çoxqütblü dünyanın qütblərindən birinə çevrildiyini, Moskvanın bu qitə ilə əməkdaşlığının son illər yeni səviyyəyə çatdığını və onu daha da inkişaf etdirmək niyyətində olduğunu bildirib.

Bu bir həqiqətdir ki, siyasətdə heç nə təsadüfən baş vermir. Fransızlar başa düşmürlər ki, fransızdilli afrikalılar niyə birdən-birə onları rədd ediblər. Fransızdilli Afrikada rejim dəyişikliyi dalğası ilə üzləşən Fransa mediası məəttəl qalıb. Parisin Afrika ilə hərbi, siyasi və mədəni əməkdaşlıq sahəsində uğursuzluqları nəinki qitədə anti-fransız əhval-ruhiyyəsinin artmasına, həm də Rusiya, Çin və ABŞ-ın təsirinin güclənməsinə səbəb olub. Bu barədə 92 fransız senatorunun cari ilin avqust ayında prezident Emmanuel Makrona ünvanladığı açıq məktubunda deyilirdi. Senatorların fikrincə, son illərdə Fransa hökumətinin üzvləri keçmiş müstəmləkələrə qeyri-rəsmi qəyyumluğu nəzərdə tutan "Fransız Afrikası" siyasətinə qarşı olan nostalji ilə razılaşmayanların hamısını ittiham edərək "uğursuzluqları ört-basdır edirlər". Məktubda yazılırdı: "Bu gün dünənki Fransa Afrikası hərbi Rusiya Afrikasına, iqtisadi baxımdan Çin Afrikasına və diplomatik olaraq Amerika Afrikasına çevrilir". Onun müəllifləri ingilis dilinin artan populyarlığı ilə əlaqədar olaraq qitədə fransız dilinin rolunun tədricən azalmasına diqqət çəkmişdilər.

Ekspertlərin fikrincə, Afrikada uğursuzluqlar göz qabağındadır. Fransa ordusunun mövcudluğu yerli hakimiyyət orqanları ilə, ilk növbədə, silahlı qüvvələrlə müəyyən münaqişələrə səbəb olub. Mali, Burkina-Faso və Qvineyada hərbi çevrilişlər baş verib. Fransanın keçmiş müstəmləkələrində mövcud olan və Paris tərəfindən tətbiq edilən idarəetmə sistemləri artıq məqsədəuyğun deyil. Gənc afrikalıların valideynləri və ya babaları kimi Fransaya heç bir bağlılığı yoxdur. Afrikalı gənclər təkcə Fransa deyil, çoxlu tərəfdaşlarla əməkdaşlıq etmək istəyirlər. Buna görə də, əminliklə demək olar ki, Fransanı yaxın perspektivdə "qara qitə"də ağ günlər gözləmir.

***S.ELAY***
***XQ***

SƏNƏT XƏBƏRLƏRİ



## İrəvan teatrında "Nurlu ömrün anları"

"Aktyorlar evi"nin səhnəsində Teatr Xadimləri İttifaqının "Qonaq teatrlar" layihəsi çərçivəsində Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının 142-ci mövsümünün açılış mərasimi olub.

Təqdimat mərasimində İrəvan Teatrının istedadlı aktyorlarının ifasında şair-dramaturq İftixar Piriyevin "Nurlu ömrün anları" tamaşası nümayiş etdirilib. Heydər Əliyevin 100 illiyinə həsr olunmuş və "Ulu öndər Heydər Əliyev irsini öyrənirik" layihəsi çərçivəsində nümayiş etdirilən tamaşa müstəqillik tariximizin gərgin dövrlərinə, müasir Azərbaycanın parlaq səhifələrini yaradan görkəmli dövlət xadiminin liderlik fəaliyyətinə həsr olunub.

Səhnə əsərində dövlət müstəqilliyini əldə etmiş Azərbaycanın hərtərəfli inkişafı, bu prosesdə Heydər Əliyevin azərbaycançılıq məfkurəsi və xalq birliyi, Ulu öndərin Qarabağ məsələsində qətiyyətli mövqeyi və Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın Zəfər yürüşü təntənəsi öz əksini tapır.

## Erkən yaşın rənglər dünyası

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təsviri sənətə ictimai marağı artırmaq, böyüklərin uşaq məsumluğu və səmimiyyəti ilə ərsəyə gətirdikləri rəsmləri nümayiş etdirmək məqsədilə "Heydər Əliyev İli" çərçivəsində elan etdiyi şou-sərgiyə xeyli sayda əsər təqdim olunub. Həmin əsərlər arasında hər kəsi uşaqlıq dövrünə qaytaran, xoş xatirələr canlandıran əsərlər əsas yer tutur.




Qeyd edək ki, sərgidə bəzi müəlliflər uşaq ikən çəkdikləri rəsmlərlə təmsil olunurlar.

## İçərişəhərin əntiq əşyalar aləmi



Şirvanşahlar Sarayı Kompleksində "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə "İçərişəhərim" adlı sərgi açılıb.

Məqsədi nəsillikcə İçərişəhərə bağlı olan sakinlərin soy-kökündən gələn dəyərlərə sədaqətini konkret nümunələr əsasında ictimaiyyətə nümayiş etdirmək olan sərgidə 100-dən artıq eksponat toplanıb. Əntiq əşyaların ən qədimi XVIII, ən müasiri isə XX əsrin ortalarına aiddir. Onların arasında dini əşyalar, sənədlər, fotolar, qədim musiqi alətləri, anaların sevgi ilə yaratdıqları və qızlarının gəlinlik cehizinə qoşduqları nəfis aksesuarlar var. Hər bir əşya özündə konkret bir tarixi dövrü yaşadır, qədim Bakının etnoqrafik lövhələrini, bədii sənətkarlıq dünyasını, ailə-məişət ənənəsini əks etdirir.

"İçərişəhərim" sərgisi 1 ay davam edəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

## "Səba" ASC səhmdarlarının nəzərinə!

11 dekabr 2023-cü il saat 15.00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti 1 nömrəli ünvanda "Səba" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Səba" Açıq Səhmdar Cəmiyyətinin təsisçisi olduğu "Dəvəçi Broyler Dərin Emal" MMC-nin ləğv edilməsi haqqında.
2. "Səba" ASC-nin törəmə cəmiyyəti olan "Qarabağ Taxıl" MMC-nin 2022-ci maliyyə-təsərrüfat ilinin nəticələrinə əsasən dividendlərin elan edilməsi.
3. "Səba" ASC-nin törəmə cəmiyyətlərində iştirak payları və törəmə cəmiyyətlərin ümumi yığıncaqlarında təmsil edilmə barədə.

Ümumi yığıncağa gələn səhmdarlar və onların nümayəndələri şəxsiyyətlərini təsdiqləyən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonu - +994124044441;

Ünvan - AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti 1.

## "Bakı Tikinti Konstruksiyaları" ASC səhmdarlarının nəzərinə!

7 dekabr 2023-cü il, saat 10.00-da "Bakı Tikinti Konstruksiyaları" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin ləğv edilməsi barədə.
2. Ləğvetmə komissiyasının yaradılması barədə.
3. Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi barədə.
4. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin I-V günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 050-247-50-12.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül zonası, 507-ci küçə, 2096-cı məhəllə.

## "Rabitəbank" ASC səhmdarlarının nəzərinə!

"Rabitəbank" ASC müşahidə şurasının 3 noyabr 2023-cü il tarixli 84 nömrəli qərarına əsasən, 2023-cü il dekabrın 28-i saat 17.00-da bankın səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Bankın 2024-cü il üzrə büdcə parametrlərinin təsdiqi.

Yığıncağın keçiriləcəyi ünvan- Bakı şəhəri, 28 May küçəsi 33.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 243 (30359) 5 noyabr 2023-cü il, bazar

## İdman xəbərləri

### Cüdoçumuz üçqat Avropa çempionudur

**Azərbaycan cüdoçusu Hidayət Heydərov Avropa çempionatının qalibi adına layiq görülüb.**



Fransanın Monpelye şəhərində keçirilən yarışda 73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız finalda ispaniyalı Salvador Kases Rokanı məğlub edib. Bunun la da, cüdoçumuz üçüncü dəfə Avropa çempionu olub.

Qeyd edək ki, komandamız yarışda 11 idmançı ilə təmsil olunur.

### Dünya çempionatı: Komandamız 4-cü oldu



**Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan dünya çempionatında minifutbol üzrə Azərbaycan millisi bürünc medal uğrunda mübarizə aparıb.**

Komandamız 3-cü yer uğrunda qarşılaşmada Macarıstan yığması ilə üz-üzə gəlib. Görüşdə rəqib 3:1 hesabı ilə qalib gəlib. Beləliklə, millimiz mundialı 4-cü yerdə başa vurub.

### MMA döyüşçümüz kəmərini qoruya bilməyib




**"Rizin" Döyüş Federasiyasının təşkilatçılığı ilə Bakıda "Landmark 7" turniri keçirilib.**

Gecənin əsas qarşılaşması Azərbaycan təmsilçisi Vüqar Kəramovla (66 kq) yaponiyalı Çihiro Suzuki arasında keçirilib. 31 yaşlı MMA (Qarışıq Döyüş Sənəti) döyüşçümüz rəqibini ilk raundda nokautla uduzub. Beləliklə, döyüşçümüz kəmərini qoruya bilməyib.

Komandamızın digər üzvlərindən Nəriman Abbasov (71 kq) Rusiya təmsilçisi Ali Abdulxalikova, Tural Rəhimov (71 kq) cənubi koreyalı Kyun Pyu Kimə məğlub olub. Mehman Məmmədov (57 kq) Türkiyə təmsilçisi Ferit Göktepe, Tofiq (71 kq) Musayev Yaponiya təmsilçisi Toji Takedaya qalib gəliblər.

### Zəfər Günü ilə bağlı yarış keçirilib

**Stolüstü tennis üzrə Zəfər Gününə həsr olunmuş ölkə birinciliyi başa çatıb.**

Azərbaycan Gənclər və İdman Nazirliyi və Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə "Şüa İdman Kompleksi"ndə keçirilən yarışda paytaxt və bölgələrdən 2011-ci il və daha kiçik təvəllüdlü 70-ə yaxın idmançı mübarizə aparıb.

Gərgin rəqabət şəraitində keçən turnirdə qızlar arasında Yağmur Məmmədli ölkə çempionu adına layiq görülüb. Banu Baytallı ikinci, Leyli Məmmədova ilə Rüqəyyə Qasımzadə üçüncü pillələrdə qərarlaşıblar.

Oğlanların mübarizəsində ən yüksək nəticəni Onur Quluzadə göstərib. Şakir Qədirov ikinci, Vaqif Babayevlə Ruslan Kərimov üçüncü yerləri tutublar.

*Leyla SABİRQIZI*
*XQ*



# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

*Hörmətli abunəçilər! Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Turizm

### Beynəlxalq səyyahlar Şuşada

***Dünya şöhrətli 4 əsas səyahətçilər şəbəkəsindən biri olan "NomadMania" klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və s.) təmsil edən 50 nəfərə yaxın heyət üzvləri Qarabağa və Şərqi Zəngəzura səfəri çərçivəsində ilk olaraq Şuşa şəhərinə gəliblər.***



Beynəlxalq səyahətçilər səfər zamanı Şuşa şəhərinin tarixi məkanları və əsrarəngiz təbiəti, işğaldan azad olunandan sonra şəhərdə Azərbaycan dövlətinin həyata keçirdiyi bərpa-quruculuq işləri ilə tanış olacaqlar.

*XQ*

### "7 nar çubuğu"nun hikməti

***Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə oktyabrın 22-dən noyabrın 8-nə qədər İkinci Qarabağ müharibəsində qazandığımız tarixi qələbənin üçüncü ildönümü ilə əlaqədar ölkənin teatr və konsert müəssisələrində "Zəfər həftəsi" adlı musiqi və teatr festivalı keçirilir. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı da festivala qatılan mədəniyyət ocaqlarındandır.***




Teatr Zəfər Günündə 140-dan çox şəhid övladı üçün milli vətənpərvərlik mövzusunda olan "Yeddi nar çubuğu" tamaşası təqdim edəcək. Bu barədə teatrın mətbuat xidmətinin rəhbəri Həmidə Rüstəmova məlumat verib. Bildirilib ki, tamaşa xalq nağılı əsasında hazırlanıb.

Qeyd edək ki, səhnə tərtibatçısı Zülfiqar İffətoğlu, quruluşçu rejissoru Qurban Mənsimov, quruluşçu rəssamı isə Rəvanə Yaqubova olan tamaşa balaca izləyicilərə milli birlik, vətənpərvərlik, cəsarət, sədaqət və düzgünlük kimi müsbət keyfiyyətləri aşılayır.

Sonda şəhid ailələrinin övladlarına müxtəlif hədiyyələr də təqdim olunacaq.

*FİDAN*
*XQ*

## Texnologiya yenilikləri

### "Apple" "Google"u nədə suçlayır?




***"Apple" şirkəti Android smartfonlarını "nəzarət cihazları" adlandıraraq "Google"u istifadəçilərə qarşı casusluqda ittiham edib. Qeyd edək ki, 2013-cü ildə də "Apple" şirkəti "Google"u Android smartfon istifadəçilərinə casusluqda ittiham etmişdi.***

ABŞ Ədliyyə Nazirliyi "Google"a qarşı davam edən antiinhisar məhkəməsi zamanı şirkətin vitse-prezidenti Eddie Cue bildirib ki, "Apple" məxfiliyə "Google"dan daha yaxşı yanaşır. İzah edib ki, "Apple" istifadəçi məlumatlarına yalnız lazım gəldikdə daxil olur. "Google" isə daim istifadəçi haqqında məlumat toplayır.

Xatırladaq ki, "Google" "Apple" cihazlarında əsas axtarış sistemidir və bunun üçün Amerika İT nəhəngi "Apple"a ildə 18-20 milyard dollar ödəyir.

*XQ*

## Hava




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən noyabrın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər duman, az çiskin olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 12-16°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 20-25°, dağlarda gecə 4-9°, gündüz 14-19° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Süleyman Sani – şəxsiyyət ucalığı

### Həyat bahasına həqiqət

Vicdanlı, dürüst olmağı üstün tutan Süleyman Sani Axundov Qori seminariyasında oxuyanda bir dəfə növbətçilik vaxtı onu çörək almağa göndərirlər. Sonra növbətçi müəllimə belə məlumat verirlər ki, guya, Süleyman çörəyi ucuz alıb, amma baha göstərib, pulun qalanını özünə götürüb. Bu hadisə gənc seminaristə pis təsir edir.

Bir neçə dəfə cəhd edir ki, növbətçi müəllimin evinə gedib bu söhbətin yalan olduğunu desin. Amma, hər dəfə müəllim tərəfindən rədd edilir.

Üstünə atılan böhtanı yumaq üçün Süleyman intihar etmək istəyir və özünü tapança ilə vurur... Bundan sonra məsələ açılır, Süleymanın günahsız olduğu aydınlaşır...

### Xilaskar çəlik



S.S.Axundov bacısı uşaqlarını çox sevirdi, onları maraqlandıran bütün suallara ətraflı cavab verməyə çalışırdı. Bir gün uşaqlardan biri ondan soruşur:

– Dayı, o çəlik sənə ağırlıq etmir? Həmişə qolunda gəzdirirsən.

– Düz deyirsən edir, amma hərdən lazım olur.

– Axı nəyə lazım olur?– deyə uşaq yenə soruşur.

S.Sani heç nə demir.

Həmin söhbətdən 2 gün keçir. Təsadüfən onun bacısı uşaqları dənizdə çimirmişlər. S.Sani də onlara tamaşa edirmiş. Birdən yazıçı görür ki, çox sevdiyi, ona suallar verən Nadir bir az dərinə gedib qışqırır. O, cəld suya girir və çəliyi uşağa uzadır:

– Nadir, tez çəlikdən yapış.

Nadir çəlikdən tutub sudan çıxır. Yazıçı deyir:

– Gördünmü, çəlik lazım olur...

### "Molla Nəsrəddin"likdir...



Bir dəfə Cəlil Məmmədquluzadəni evinə qonaq çağıran Süleyman Sani Axundov ocağın üstünə qoyduğu yağın əriməsinə baxmaq üçün mətbəxə keçir. Baxır ki, yağ qazanın dibində qalıb. Olan-qalan da buxarlanır havaya. Otağa qayıdır və deyir:

– Molla, möcüzə baş verib, yağ uçur.

Mirzə Cəlil elə bilir ki, dostu zarafat edir. Sonra mətbəxə keçəndə görür ki, yağdan əsər-əlamət qalmayıb. Gülə-gülə deyir:

– Əsil "Molla Nəsrəddin"in malıdır. Yaz, ver, çap edək. Görək ki, bu marqarin yağı nəmənədir ki, uçur...

*Təqdim etdi:*
*Z. HÜSEYNLİ*
*XQ*

## Hadisə

# Paytaxtda lövhə oğurluğu

**Bakının mərkəzində oğurluq hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən mətbuata verilən xəbərə görə, noyabrın 3-də Səbail rayonu ərazisindən 1400 manat dəyərində 2 ədəd parklanma lövhəsinin oğurlanması barədə polisə məlumat daxil olub.**




Səbail Rayon Polis İdarəsinin 9-cu Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş Niyaməddin Fərəcov müəyyən olunaraq saxlanılıb.

*XQ*


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4790 |
| SİFARİŞ | 2843 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00